

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

12 iyul 2025-ci il, şənbə
№ 119 (6946)
Qiymәti 60 qәpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## 14 iyul plenumu...

## Milli-siyasi intibahın başlandığı gün



## Vətənə bağlılıq, xalqa sədaqət nümunəsi

Bax səh. 3

## Əbu-Dabi görüşü: Azərbaycanın liderliyi bir daha təsdiqləndi

Bax səh. 2

## 8-ci səfər...

### İslahatçı, açıq və dialoqa əsaslanan siyasi sistem bu səfərlərlə daha da möhkəmlənir




Bax səh. 5

## “Tərəqqi yolunun başlanğıcı: müstəqil və qüdrətli Azərbaycan naminə”

İyulun 11-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının, YAP Səbail rayon təşkilatının və “Türk Ağsaqqalları arasında Əlaqələrin İnkişafı” İctimai Birliyinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlməsinin 56-cı ildönümünə həsr olunmuş “Tərəqqi yolunun başlanğıcı: müstəqil və qüdrətli Azərbaycan naminə” mövzusunda tədbir keçirilib.

Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasında keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb. Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətlərindən danışıb...

Bax səh. 4

## 44 gündən öncə tarixi 5 gün - iyul döyüşləri zəfər yolunun mayakına çevrildi



Bax səh. 4

## Dostluğun və qardaşlığın nümunəsi...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvilini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Mariam Kvrivişviliyə nazir təyin olunması münasibətilə təbriklərini çatdıraraq, onun vəzifəsinin icrasına başlamasından qısa müddət sonra ölkəmizə səfərini sıx əməkdaşlığımızın göstəricisi kimi qiymətləndirdi.

Qonaqpərvərliyə və təbriklərə görə minnətdarlığını bildirən Mariam Kvrivişvili dövlətimizin başçısı ilə görüşdən şərəf hissi keçirdiyini dedi.

Qonaq Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İrakli Kobaxidzeyə çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidenti Gürcüstanda keçirilmiş parlament seçkilərindən sonra İrakli Kobaxidzenin bu ilin yanvarında ilk xarici səfərini ölkəmizə etməsini məmnunluqla xatırlayaraq, bunun Azərbaycanla Gürcüstan arasında...

Bax səh. 2

## Pedaqoji fikir tariximizdə İrəvan Müəllimlər Seminariyası

İrəvan şəhəri tarixən Azərbaycan türklərinin yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır. İrəvan xanlığı Çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilmişdir. XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və digər şəhərlərlə yanaşı, İrəvan azərbaycanlıların aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Azərbaycanın elm və mədəniyyət tarixinə “İrəvani” təxəllüsü ilə daxil olmuş və öz önəmli töhfələrini vermiş xeyli alim, ədəbiyyat və incəsənət xadimləri var.

İrəvan ədəbi-mədəni, ictimai-siyasi mühitinin görkəmli nümayəndələrinin Şərq elmində, ədəbiyyatında, mədəniyyətində oynadığı müstəsna rolun təsiri bu gün də duyulur. Həmin ərazilərin əsl sakinləri və sahibləri azərbaycanlılar olsa da, tarixin müxtəlif dövrlərində zor gücünə öz əzəli torpaqlarında yaşamaq...

Bax səh. 6

## Ukrayna necə bərpa ediləcək?




Bax səh. 6

## NATO-nun müttəfiqləri ödəyəcək...



Bax səh. 7

# Dostluğun və qardaşlığın nümunəsi...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvilini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Mariam Kvrivişviliyə nazir təyin olunması münasibətilə təbriklərini çatdıraraq, onun vəzifəsinin icrasına başlamasından qısa müddət sonra ölkəmizə səfərini sıx əməkdaşlığımızın göstəricisi kimi qiymətləndirdi.

Qonaqpərvərliyə və təbriklərə görə minnətdarlığını bildirən Mariam Kvrivişvili dövlətimizin başçısı ilə görüşdən şərəf hissi keçirdiyini dedi.

Qonaq Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İrakli Kobaxidzeyə çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidenti Gürcüstanda keçirilmiş parlament seçkilərindən sonra İrakli Kobaxidzenin bu ilin yanvarında ilk xarici səfərini ölkəmizə etməsini məmnunluqla xatırlayaraq, bunun Azərbaycanla Gürcüstan arasında dostluğun və qardaşlığın nümunəsi olduğunu dedi.

Prezident İlham Əliyevin qlobal lider olduğunu vurğulayan Mariam Kvrivişvili dövlətimizin başçısının Gürcüstanda dost kimi qəbul olunduğunu qeyd etdi.

Söhbət zamanı müxtəlif sahələri əhatə edən ikitərəfli əlaqələrimizin geniş gündəliyinin olduğu vurğulandı, Azərbaycanla Gürcüstan arasında enerji və nəqliyyat sahələrində qurulmuş əməkdaşlığın və həyata keçirilən birgə layihələrin yalnız ölkələrimiz deyil, daha geniş region üçün strateji əhəmiyyət kəsb etdiyi qeyd olundu. Bağlantı, enerji, ticarət, sərmayələr və digər sahələrdə ikitərəfli və çoxtərəfli formatda daha sıx əməkdaşlıq həyata keçirilməsinin önəminə toxunularaq, müxtəlif istiqamətlərdə münasibətlərimizin genişlənəcəyinə ümidvarlıq bildirildi.

Görüşdə Azərbaycanın Gürcüstanın əsas ticarət tərəfdaşı olduğu vurğulandı, ticarət dövriyyəsinin artırılması üçün böyük potensialın mövcudluğuna toxunuldu, iqtisadiyyatın müxtəlif sahələrində birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.



# Prezidentdən Fərman...

## “Bakinski raboçi” qəzetinin redaksiyası” MMC və “Xalq” qəzetinin redaksiyası” MMC formalaşdırılır

“Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan qurumların siyahısı”nda dəyişiklik edilib.

Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Fərmana əsasən, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan “Bakinski raboçi” qəzetinin redaksiyası əsasında Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində “Bakinski raboçi” qəzetinin redaksiyası” Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılır. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan “Respublika” qəzeti və “Xalq qəzeti” redaksiyalarının birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində “Xalq” qəzetinin redaksiyası” Məhdud Məsuliyyətli Cəmiyyəti formalaşdırılır.

Fərmana görə, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan “Bakinski raboçi” qəzeti redaksiyasının bütün hüquq və öhdəlikləri, habelə əmlakı Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan “Bakinski raboçi” qəzetinin redaksiyası” Məhdud Məsuliyyətli Cəmiyyətinə keçir. O cümlədən Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan “Respublika” qəzeti və “Xalq qəzeti” redaksiyalarının bütün hüquq və öhdəlikləri, habelə əmlakı Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan “Xalq” qəzetinin redaksiyası” Məhdud Məsuliyyətli Cəmiyyətinə keçir.

Bu Fərmanın 1-ci və 2-ci hissələri ilə yaradılan məhdud məsuliyyətli cəmiyyətlər “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündək Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan “Bakinski raboçi”, “Respublika” qəzetlərinin və “Xalq qəzeti”nin redaksiyaları fəaliyyətlərini davam etdirəcəklər.

# Əbu-Dabi görüşü: Azərbaycanın liderliyi bir daha təsdiqləndi

İyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında baş tutan ikitərəfli görüş postmüharibə mərhələsində başlayan sülhyaratma prosesində irəliyə doğru atılmış mühüm addımdır . İkitərəfli formatda aparılan müzakirələr Cənubi Qafqazın gələcəyi, regionun yeni siyasi-iqtisadi arxitekturasının və təhlükəsizlik mühitinin formalaşması baxımından böyük əhəmiyyət daşıyır.

Görüş artıq tarix olsa da, şübhə yoxdur ki, onunla bağlı müzakirələr hələ uzun müddət davam edəcək. Bu da gündəliyin aktuallığı ilə bağlıdır. Sülhyaratma prosesində yeni səhifə açılır ki, burada da Azərbaycanın qətiyyətli mövqeyi, Prezident İlham Əliyevin liderliyi və təşəbbüsləri əsas faktorlar qismində çıxış edir.

## Qalib Azərbaycanın növbəti diplomatik uğuru

Əbu-Dabi görüşü qalib Azərbaycanın növbəti diplomatik uğurudur və sülhyaratma prosesində ölkəmizin liderliyinin qəbul edilməsinin əyani təzahürüdür. Burada bəzi məqamlara xüsusi olaraq diqqət çəkə bilərik.

İlk növbədə onu vurğulamaq lazımdır ki, sülhyaratma prosesinə məhz Azərbaycanın 44 günlük müharibənin nəticələrinə uyğun olaraq yaratdığı reallıqlar sayəsində başlamaq mümkün olub. Bundan əvvəl Ermənistan sırf müharibə ritorikasından çıxış edirdi. Hətta bu ölkənin hərbi-siyasi rəhbərliyinin bir sıra təmsilçiləri “yeni ərazilər uğrunda yeni müharibə” tezisini dövriyyəyə buraxmışdılar. Ordumuzun şanlı Zəfəri sayəsində işğalçı Ermənistan ram olundu, kapitulyasiyaya məruz qaldı və beləliklə də, sülh prosesinə başlamaq üçün imkanlar açıldı.

İkinci mühüm məqam ondan ibarətdir ki, qalib Azərbaycan 44 günlük müharibə başa çatdıqdan sonra yaratdığı reallıqlara istinad etməklə ilk olaraq sülh təşəbbüsünü irəli sürdü və qarşı tərəfə beş bənddən ibarət sülh paketi göndərdi. Həmin sənəddə sülhyaratma prosesinin beynəlxalq hüquq normalarına uyğun olan baza prinsipləri əksini tapmışdı. Əgər Ermənistan rəhbərliyi də həmin sənədə səmimiyyətlə qarşılıq versəydi, heç şübhəsiz ki, proseslər daha sürətlə irəliləyərdi. Ancaq biz zaman-zaman qarşı tərəfin müxtəlif manipulyasiyalara əl atdığının, əsassız iddialar ortaya qoyduğunun şahidi olduq ki, bu da ləngimələrə gətirib çıxartdı.

Üçüncü məqam: İndiyədək sülhyaratma prosesinin ləngiməsinin digər bir səbəbi bəzi regiondankənar güclərin və vasitəçilərin danışıqlarda aparıcı rol almaq cəhdləri ilə bağlı olub. Məlumdur ki, ötən beş ildə Azərbaycanla Ermənistan arasında münasibətlərin tənzimlənməsi məqsədilə Moskva, Brüssel və Vaşinqton kimi formatlarda danışıqlar aparılıb. Ancaq işğal dövründə Minsk qrupunun fəaliyyəti necə səmərəsiz idisə, qeyd olunan formatlar çərçivəsində də hansısa bir uğur əldə olunmadı. Açıq demək lazımdır ki, vasitəçilərin sülh gündəliyini öz maraqları ilə uzlaşdırmaq və bununla da Cənubi Qafqazda uzunmüddətli mövcudluqlarına nail olmaq cəhdləri nəticəyönümlü danışıqlar aparılmasını daim əngəlləyirdi. Vasitəçilər arasında heç də xoş niyyətli olmayan açıq rəqabət yaranmışdı ki, bu da bütövlükdə regionun maraqlarına uyğun deyildi. Təbii ki, belə vasitəçiliyi Azərbaycan qəbul edə bilməzdi və etmədi də. Belə olan halda Özünün də vurğuladığı kimi, nəyi necə və nə zaman etməyi hamıdan yaxşı bilən Prezident İlham Əliyev danışıqların ikitərəfli formatda aparılması təşəbbüsünü irəli sürdü və mövqeyini əsaslandırdı. 2023-cü ilin payız aylarından etibarən respublikamız ikitərəfli formatın təsbit olunması istiqamətində israrlı yanaşma sərgiləyir. Qarşı tərəf də bunu qəbul etmək məcburiyyətində qaldı.



Məhz ikitərəfli formatda aparılan danışıqlar sülyaratma prosesində ciddi dinamika yaradıb. Xatırladaq ki, 19 aprel 2024-cü ildə Azərbaycanın və Ermənistanın müvafiq komissiyalarının rəhbərlərinin sərhəddə baş tutan görüşündə Qazağın zamanında işğal altına düşən 4 kəndinin (Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı) Azərbaycana qaytarılması ilə bağlı razılıq əldə olunub. Burada razılaşmanın kənar güclərin iştirak etmədiyi görüşdə əldə olunması mühüm əhəmiyyət daşıyır. Bununla da ikitərəfli dialoqun daha nəticəyönümlü olduğu praktikada təsdiqləndi. “...Əslində, bizə vasitəçi lazım deyil. Biz Ermənistanla dövlət sərhədinin delimitasiyasını vasitəçilərsiz etdik. Sadəcə olaraq, onlara bildirdik ki, Qazax rayonunun dörd kəndi heç bir qeyd-şərtsiz qaytarılmalıdır və bunu son dəfə mən bu ilin (2024-cü ilin - red.) fevral ayında demişəm. Hesab edirəm ki, bu sözlər çox tutarlı oldu və ondan sonra heç bir vasitəçisiz, heç bir qeyd-şərtsiz Qazaxın dörd kəndi, - hansı ki, işğal altında idi, - bizə qaytarıldı. Beləliklə, biz nəinki delimitasiyanı, hətta demarkasiyanı da başlamışıq. Ona görə danışıqlarda da bizə heç bir vasitəçi lazım deyil. Ermənistan da buna bel bağlamasın”, - deyə Prezident İlham Əliyev yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı çıxışında vurğulayıb.

Bundan sonra ikitərəfli formatda aparılan danışıqların nəticəsi olaraq daha bir mühüm uğur qazanıldı- 2025-ci ilin mart ayında iki ölkə arasında imzalanacaq sülh müqaviləsinin bütün mətni razılaşdırıldı.

Məhz indiyədək Azərbaycanın liderliyi ilə başlayan ikitərəfli formatda aparılan danışıqlarda əldə olunan bu kimi uğurlar qarşılıqlı etimad mühitinin yaranması və yüksəksəviyyəli Abu-Dabi görüşünün baş tutmasına zəmin yaradıb. Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumata əsasən, görüşdə dövlətlərarası normallaşma gündəliyinin müxtəlif aspektləri müzakirə edilib. Bildirilib ki, ikitərəfli danışıqların normallaşma prosesi ilə bağlı bütün məsələlərin həlli üçün ən səmərəli format olduğu təsdiqlənib və bu əsasda belə nəticəyönümlü dialoqun davam etdirilməsi razılaşdırılıb.

Sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər. Tərəflər, həmçinin iki ölkə arasında ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə razılığa gəliblər.

Abu-Dabi görüşündə əldə olunan razılaşmalar Azərbaycanın mövqeyinə və milli maraqlarına tam uyğundur. Bu razılaşmalar onu deməyə əsas verir ki, ikitərəfli formatda aparılan danışıqlar tərəfləri heç vaxt olmadığı qədər sülhə yaxınlaşdırıb. Bununla belə yekun sülh müqaviləsinin imzalanması üçün Azərbaycanın iki mühüm şərti qüvvədə qalır. Ermənistan rəhbərliyi bu ölkənin konstitusiyasının dəyişdirilməsi ilə bağlı ölkəmizin haqlı tələbini yerinə yetirməlidir. Çünki burada Ermənistanın respublikamıza qarşı ərazi iddialarını özündə ehtiva edən müddəalar var. Həmin müddəalar əsas qanundan çıxarılmayacağı təqdirdə yekun sülh müqaviləsinin imzalanmasının da hüquqi əsası olmayacaq.

Azərbaycan həmçinin de-fakto mövcud olmayan Minsk qrupunun de-yure də ləğvinə nail olmaq istəyir. Bundan ötrü Ermənistan da qurumun ləğv edilməsi ilə bağlı ATƏT-ə müvafiq qaydada müraciət ünvanlamalıdır. Yekun sülh sazişinin mümkün qədər tez imzalanması üçün ölkəmizin bu haqlı şərti də yerinə yetirilməlidir. Qeyd olunan iki qanuni tələb Ermənistan tərəfindən yerinə yetirildikdən sonra sülh sazişinin imzalanması üçün heç bir manea qalmayacaq.

Azərbaycan və Ermənistan liderlərinin Abu-Dabidə baş tutan görüşü transmilli mediada geniş əks-səda doğurub. O cümlədən ayrı-ayrı ölkələrdən və beynəlxalq təşkilatlardan görüşlə bağlı reaksiyalar özünü çox gözlətməyib. “Birləşmiş Ştatlar Cənubi Qafqazda sülhün və sabitliyin təşviqi üçün səyləri dəstəkləyir”. Bu sözləri ABŞ Dövlət Departamentinin sözçüsü Tammi Bryus keçirdiyi mətbuat konfransında deyib. O bildirib ki, Tramp administrasiyası və Dövlət katibi Rubionun yanaşması öz sözünü deyir. “O, kabinet iclasında da ABŞ-ın sülh üçün çalışan bir administrasiya olduğunu söyləyib.

## Beynəlxalq birlik təqdir edir

Onlar bunun üçün nə lazımdırsa, edəcəklər. Bu dəyişməyib. Bu, “Amerikanı yenidən böyük etmək” öhdəliyinin əsas mahiyyətidir və əlbəttə ki, ətrafımızdakı dünyanın vəziyyətini yaxşılaşdırmaq məqsədi daşıyır”, - deyə o qeyd edib.

Qonşu Rusiyadan da oxşar məzmunlu açıqlama gəlib. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Moskva Əbu-Dabidə Azərbaycan ilə Ermənistan arasında keçirilən danışıqları alqışlayır. Kremlin nümayəndəsinin sözlərinə görə, Rusiya müxtəlif səviyyələrdə iki ölkə arasında sülh sazişinin tezliklə imzalanmasını alqışlayacağını dəfələrlə bəyan edib. D.Peskov vurğulayıb ki, belə bir sazişin bağlanması regiona gözlənilən sabitlik və sülh gətirəcək mühüm amil olacaq. O qeyd edib: “Biz bu prosesi bütünlüklə dəstəkləyirik”.

Həmçinin Avropa İttifaqı (Aİ) da Abu-Dabi görüşünü alqışlayıb. Bu barədə Aİ-nin Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə sözçüsü Anitta Hipper deyib. Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasındakı tarixi görüşə Avropa İttifaqının münasibəti haqqında danışan Hipper, normallaşma prosesində atılan bütün addımların Aİ tərəfindən dəstəkləndiyini bildirib.

*Mübariz ABDULLAYEV*

# 14 iyul plenumu...

## Milli-siyasi intibahın başlandığı gün

Müasir Azərbaycan dünyanın sürətli inkişaf tempinə malik ölkələrindən sayılır. Vətən müharibəsində zəfər qazanan, ərazi bütövlüyünü və suverenliyini bərpa edən, qısa zamanda yerləşdiyi bölgənin liderinə çevrilən Azərbaycan bu nailiyyətlərə düşünülmüş mükəmməl iqtisadi-siyasi strategiyanın həyata keçirilməsi nəticəsində nail olub. Ölkəmizin inkişaf doktrinasının əsası isə ötən əsrin 70-ci illərindən qoyulub. Məhz həmin dövrdə Sovet İttifaqının tərkibində olsa belə, Azərbaycanın dinamik templərlə iqtisadi yüksəlişini təmin edən inkişaf strategiyasının hazırlanmasına və həyata keçirilməsinə start verildi. Bu inkişaf isə birmənalı şəkildə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

### Vətənə bağlılıq, xalqa sədaqət nümunəsi





### Yeni bir Azərbaycan yaratdı...

Danılmaz faktdır ki, Ümummilli Liderimiz Heydər Əliyevin siyasi bioqrafiyasının bütün səhifələri ölkəsinin inkişafı uğrunda fədakar mübarizəyə həsr olunub. Hələ sovet dövründə keçmiş ittifaqda yalnız aqrar respublika kimi xarakterizə olunan Azərbaycan imperiyanın ucqar adlandırılan əyalətlərindən sayılırdı. Ölkəmizin hələ sovet dövründə intibah yoluna qədəm qoyması məhz Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə Ulu Öndərin Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri seçilməsi ilə bu proses başlandı. Bütün sahələrdəki inkişaf və dəyişikliklər - sənayeləşmə, ölkədə milli kadrların yetişdirilməsi, ana dilimizə olan münasibətin dəyişməsi, milli mədəniyyətimizin inkişafı birmənalı şəkildə Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyətinin bəhrəsi idi. Bu gün fəxrlə deyə bilərik ki, müasir Azərbaycanın inkişafının intibah dövrü məhz 1969-cu ildən başlayır. Həmin illərdə həyat Heydər Əliyevin üzərinə Vətən və xalq naminə mühüm bir missiya qoymuşdu. Və O, keçmiş sovet dövrünün ideoloji məhdudiyyətlərinin yaratdığı çətinliklərə rəğmən, respublikanı dəyişmək, yeni bir Azərbaycan qurmaq yolunda inamlı addımlar atmağı bacardı. Burada Heydər Əliyevin şəxsi keyfiyyətləri, əvvəlki illərdə təsdiqlənmiş unikal idarəçilik bacarığı, liderliyi və əlbəttə ki, Vətəninə, xalqına sonsuz sevgisi, milli kimliyinə sadiqliyi mühüm rol oynadı.





### Ölkənin taleyini dəyişən plenum...

1969-cu ilin 14 iyulu - bu gün Azərbaycan tarixində çox əlamətdar tarixlərdən biridir. Həmin tarixdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (KP MK) plenumunda Heydər Əlirza oğlu Əliyevin Azərbaycan KP MK-nın birinci katibi və büro üzvü seçilməsi ölkənin iqtisadi, mədəni yüksəlişində, xalqımızın rifahının yaxşılaşmasında, eləcə də müstəqil dövlətimizin təməlinin qoyulmasında həlledici rol oynadı. Azərbaycanın siyasi rəhbərliyinə gəlişindən dərhal sonra Heydər Əliyev ölkədə həmin dövrlərdə geniş yayılan rüşvətxorluq, vəzifədən sui-istifadə və digər qanunsuzluqlara qarşı mübarizəyə başladı. Onun başçılıq etdiyi Mərkəzi Komitənin qərarları bir-birinin ardınca mətbuatda dərc edilirdi. Ulu Öndərin birbaşa nəzarəti və göstərişləri əsasında, həm respublika, həm də şəhər və rayonlar səviyyəsində özbaşınalıqla məşğul olan rəhbər şəxslər barəsində təsirli tədbirlər göründü.

Ölkə əhalisi yeni rəhbərinə dərin rəğbət bəsləyir, Onun gördüyü işləri dəstəkləyirdi. Ən çox diqqət yetirilən məsələlərdən biri isə işgüzar, xalqa sadiq, mənəvi cəhətdən saf olan kadrların seçilərək respublikada, şəhər və rayonlarda rəhbər vəzifələrə təyin edilməsi idi. Kadr siyasətinə xüsusi diqqət ayıran Heydər Əliyev rəhbər vəzifələrə azərbaycanlıların cəlb edilməsi yönündə əsaslı fəaliyyəti ilə seçilirdi.

### Milli dəyərlərə bağlılıq...

Heydər Əliyevin siyasi strategiyasında milli dəyərlərə bağlılıq məsələsi hər zaman ön planda dayanıb. Məhz bu illərdə ölkəmizdə Ana dilindən geniş istifadənin təşviqinə start verildi. Məhz Ulu Öndər tərəfindən doğma dilə verilən önəmin nəticəsi idi ki, Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dili ilk dəfə olaraq rus dili ilə yanaşı, rəsmi dövlət dili kimi öz əksini tapdı. Ümummilli Lider Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə ölkədə elmin inkişafına da böyük diqqət yetirdi. Ulu Öndər 1970-ci illərdə minlərlə azərbaycanlı gəncin Sovetlər Birliyinin ən qabaqcıl ali təhsil ocaqlarında biliyə yiyələnməsinə nail oldu. Məhz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə SSRİ-nin müxtəlif respublikalarında oxumağa göndərilən gənclərin sayı dəfələrlə artdı. Təhsilini bitirdikdən sonra ölkəyə qayıdan həmin gənclərin böyük hissəsi müstəqil Azərbaycan Respublikasında elmin inkişafında mühüm rol oynadı.

### Bakı tikinti meydanına çevrildi...

Heydər Əliyevin keçmiş sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə ittifaq hökuməti tərəfindən Azərbaycanın hərtərəfli inkişafını təmin edən beş xüsusi qərar qəbul edildi. Nəticədə, 1970-1982-ci illər Azərbaycanın tarixinə bütün varlığı ərzində ən parlaq quruculuq dövrü kimi daxil oldu. Respublika sənaye inkişafına istiqamətləndi, eyni zamanda, aqrar sektorda əmək tutumlu və gəlirli sahələr inkişaf etdirildi. Qısa dövr ərzində 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tutdu. Həmin illərdə respublikada istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bəhs olunan dövrdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Eyni zamanda, respublika nəhəng tikinti meydanını xatırladırdı. Bakıda həmin dövr üçün çox böyük əhəmiyyətə malik olan kondisioner zavodu inşa olundu. 1970-ci illərdə respublikada yüzlərlə yeni ictimai obyektlər, məktəb və xəstəxanalar, zavod və fabriklər tikilərək istifadəyə verildi. Bu dövrdə yaşayış binalarının sayında sürətli artım qeydə alındı, minlərlə ailəyə yeni mənzil verildi.

### Gələcəyimiz üçün milli kadr potensialı...

1970-1982-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də respublikanın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illərdə iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirildi. Heydər Əliyevin təşəbbüsü ilə azərbaycanlı gənclər SSRİ-nin 170-dək qabaqcıl ali məktəblərində təhsil almağa göndərilirdi və bu məqsədlə hər il respublikadan kənara 800 tələbə yola salınırdı. Hərbi təhsilin inkişafına xüsusi diqqət yetirilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

### Bakıdan Moskvaya

1982-ci ildə Moskvaya çağırılan Ulu Öndər həmin dövrdə İttifaq rəhbərliyində təmsil olunan şəxslər arasında xüsusilə seçilirdi. İttifaq daxilində uğurlu layihələrə imza atan Heydər Əliyev qısa zamanda hər kəs tərəfindən tanındı. İldən-ilə artan nüfuzu İttifaq rəhbərlərində böyük qorxu yaratdı - bunun nəticəsi idi ki, intriqaların geniş şəkildə yer aldığı SSRİ-nin siyasi rəhbərliyi ədalətsiz şəkildə Heydər Əliyevi tutduğu vəzifələrdən uzaqlaşdırmağa nail oldu. Təsadüfi deyil ki, bundan sonra ermənilərin Azərbaycana qarşı ərazi iddialarını gerçəkləşdirmək uğrunda fəaliyyəti də genişləndi, 1980-ci illərin sonlarından başlayaraq Ermənistandakı azərbaycanlılar etnik təmizlənməyə məruz qaldı. 1990-cı illərin əvvəllərində isə yenicə müstəqillik əldə edən Azərbaycan ən çətin dövrlərini yaşadı. Bir tərəfdən, Ermənistanın ölkəmizə qarşı apardığı işğalçılıq müharibəsi, digər tərəfdən, hakimiyyətdaxili çəkişmələr, siyasi, iqtisadi böhran nəticəsində dövlətin mövcudluğu təhlükə altına düşmüşdü.

### Xalqının və dövlətinin xilaskarı...

Azərbaycan xalqı Ümummilli Lideri, Onun ölkəsi üçün gördüyü işləri unutmamışdı. Belə bir çətin məqamda Azərbaycanı xilas edə biləcək yeganə şəxsin məhz Heydər Əliyev olduğunu xalq yaxşı bilirdi. Qəlbi Azərbaycanla bir döyünən Ulu Öndər də bu məqamda üzərinə olduqca ağır və məsuliyyətli işi götürməyin vacibliyini anlayırdı. Beləliklə, xalqın təkidli çağırışı sayəsində Heydər Əliyev 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıtdı. Elə həmin dövrdən ölkənin müstəqil inkişaf yolunda yeni mərhələyə qədəm qoyuldu.

Əsası Ulu Öndərimiz tərəfindən qoyulan və Azərbaycanın inkişafına xidmət edən siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Prezident İlham Əliyev hər zaman bildirir ki, Heydər Əliyev bütün dövrlərdə öz xalqına sədaqətlə xidmət edib: "O, bütün dövrlərdə Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasına və Azərbaycanın inkişafına böyük səylər qoymuşdur. 1970-1980-ci illərdə Onun rəhbərliyi altında Azərbaycan Sovet İttifaqında ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə qədər yol keçmişdir. Onun rəhbərliyi altında o illərdə güclü sənaye potensialı yaradılmışdır ki, bu gün də bu potensial müasir və müstəqil Azərbaycana xidmət göstərir".

**P.İSMAYILOV**

# "Tərəqqi yolunun başlanğıcı: müstəqil və qüdrətli Azərbaycan naminə"







İyulun 11-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının, YAP Səbail rayon təşkilatının və "Türk Ağsaqqalları arasında Əlaqələrin İnkişafı" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlməsinin 56-cı ildönümünə həsr olunmuş "Tərəqqi yolunun başlanğıcı: müstəqil və qüdrətli Azərbaycan naminə" mövzusunda tədbir keçirilib.

Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasında keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb. Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətlərindən danışıb. O bildirib ki, 1969-cu ildə Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə respublikamızda böyük inkişaf yolu başlayıb. Təşkilat sədri qeyd edib ki, bu, Azərbaycanın gələcək inkişafının, intibahının, tərəqqisinin və parlaq perspektivlərinin əsası oldu.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, 1969-cu ilin iyul ayında Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra bütün sahələrdə həyata keçirilən islahatlar, görülən tədbirlər respublikamızın inkişafını təmin etdi. Onun sözlərinə görə, Azərbaycan qısa müddətdə keçmiş ittifaq səviyyəsində sənaye istehsalının artım sürətinə görə ilk yerlərdə qərarlaşdı, kənd təsərrüfatı, təhsil və səhiyyə sektorlarında, eləcə də neft sənayesində inkişaf tempi əldə edildi. Həmçinin milli-mənəvi dəyərlərin qorunması istiqamətində əhəmiyyətli tədbirlər görüldü.

YAP Veteranlar Şurasının sədri qeyd edib ki, 1971-ci ildə Ulu Öndərimizin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması isə peşəkar milli hərbçilərimizin yetişməsində mühüm amil oldu: "Bununla yanaşı, 1978-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə İttifaq respublikalar arasında ilk olaraq məhz Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bir sözlə, Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində ölkəmizə rəhbərlik etdiyi dönəm respublikamızın tərəqqi dövrü kimi yadda qaldı. Görülən işlər, əslində, müstəqilliyimiz üçün zəmin yaradırdı. 1991-ci ildə Azərbaycan müstəqilliyini elan etsə də, gerçək müstəqilliyimiz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qazanıldı. Çünki Heydər Əliyev Azərbaycanı parçalanmaqdan xilas edərək müstəqilliyimizin dönməzliyini təmin etdi. Bu gün Prezident İlham Əliyev Heydər Əliyev yolunu uğurla davam etdirir. Ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan hazırda dünyada böyük nüfuza malikdir".

"Türk Ağsaqqalları arasında Əlaqələrin İnkişafı" İctimai Birliyinin sədri, YAP Veteranlar Şurasının üzvü Sudeyif İmamverdiyev çıxışında bildirib ki, Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Onun sözlərinə görə, hər bir xalqın tarixində müstəsna rol oynayan, xilaskarlıq missiyası həyata keçirən tarixi şəxsiyyətləri var: "Azərbaycan xalqının tarixində də məhz belə bir şəxsiyyət Ümummilli Liderimiz Heydər Əliyevdir. İstənilən sahənin inkişaf tarixinə nəzər saldıqda Heydər Əliyevin uğurlu siyasətinin, onun misilsiz xidmətlərinin şahidi oluruq. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi illər milli oyanış, tərəqqi, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir".

S.İmamverdiyev qeyd edib ki, Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir və dünyada qüdrətli dövlətə çevrilib. "Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyaları daim gənclərə aşılanmalıdır", - deyən S.İmamverdiyev gəncləri Heydər Əliyevin zəngin dövlətçilik irsini dərindən öyrənməyə çağırıb.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov Ulu Öndər Heydər Əliyevin bütün həyatını Azərbaycan xalqına və dövlətinə həsr etdiyini bildirib. Onun sözlərinə görə, 1969-cu ildə Ulu Öndərin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlməsi respublikamızın tarixində dönüş nöqtəsi oldu. Ulu Öndər Heydər Əliyev Sovet İttifaqı dövründə Azərbaycanı qabaqcıl respublikalar sırasına çıxardığı kimi, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə də müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu.

YAP Veteranlar Şurasının üzvü söyləyib ki, bu gün Azərbaycanın əldə etdiyi bütün uğurların təməlində məhz Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri dayanır: "Heç vaxt unutmamalıyıq ki, bu nailiyyətlər böyük şəxsiyyət Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Ulu Öndər Heydər Əliyevin ruhu şaddır. Çünki bu gün Azərbaycan müstəqil, güclü dövlətdir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz ərazi bütövlüyü və suverenliyini tam bərpa edib. Hazırda Azərbaycan inkişafının yeni mərhələsini yaşayır. İnanırıq ki, qalib Azərbaycan bundan sonra da böyük nailiyyətlər qazanacaq".

Tədbirdə YAP Veterenlar Şurasının üzvü Tahir Məmmədov və "Türk Ağsaqqalları arasında Əlaqələrin İnkişafı" İctimai Birliyinin İdarə Heyətinin üzvü Ramiz Məşədihəsənli də çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Vətənimiz üçün fədakar fəaliyyətinin önəmindən ətraflı bəhs ediblər.

Sonra tədbir interaktiv formada davam edib, iştirakçıların sualları cavablandırılıb.

YAP sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqəsi təqdim olunub, partiyanın Səbail rayon təşkilatının bir qrup fəalı Fəxri fərmanla təltif ediliblər.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# 44 gündən öncə tarixi 5 gün - iyul döyüşləri zəfər yolunun mayakına çevrildi

## Tovuz döyüşlərindən 5 il ötür

SSRİ-nin son illərinə təsadüf edən erməni separatizminin baş qaldırması və Ermənistanın işğalçılıq planları Cənubi Qafqazı 30 ilə yaxın müharibə meydanına çevirdi. İşğalçı ölkə Qarabağı və ona bitişik 7 rayonu işğal etməklə beynəlxalq konvensiyaların tələblərini pozdu, bölgədə təhdid formalaşdırdı, Azərbaycanın təməl haqlarını pozdu, bir milyona yaxın azərbaycanlını öz dədə-baba yurdlarından didərgin saldı, insanların öz evlərində yaşamaq hüququnu məhdudlaşdırdı. Problemin həlli ilə bağlı davam edən "sülhyaratma" missiyası ilə elə başladığı nöqtədə də yerində saydı - nə vasitəçilik missiyasını üzərinə götürən ATƏT-in Minsk qrupunun fəaliyyəti, nə Ermənistanın işğalçılıq faktının qeyd-şərtsiz aradan qaldırılmasını tələb edən BMT TŞ-nın məlum 4 qətnaməsi, nə də aparılan danışıqlar fayda vermədi - tam əksinə, ötən illər ərzində Ermənistan işğal altında saxladığı Azərbaycan torpaqlarından təmas xətti üzrə yeni hücumlar etdi, təxribatlar törətdi. Nəticədə onlarla günahsız insan, hətta körpə uşaqlar belə erməni təxribatlarının qurbanına çevrildi.

XXI əsrin ikinci onilliyinin ilk aylarında isə bu təxribatlar daha intensiv hal almağa başladı. 2020-ci ilin əvvəlindən etibarən dünyada baş verən dəhşətli koronavirus pandemiyasını özünə fürsətə çevirməyə çalışan Ermənistan beynəlxalq aləmin diqqətinin fərqli məsələlərə qarışdığını zənn edərək yenidən təxribatçı hücumlara başladı. Bu hücumlar isə genişmiqyaslı döyüşlərdən başqa yol qoymurdu - uzun illər boyunca problemin sülh və danışıqlar yolu ilə həllini dəstəkləyən Azərbaycan öz təhlükəsizliyini təmin etmək və işğal altındakı torpaqlarını azad etmək üçün 2020-ci ilin sentyabrında erməni təxribatlarına əks-həmlə ilə cavab verdi. Azərbaycan dövləti qısa bir zamanda - cəmisi 44 günə öz ərazi bütövlüyünü təmin etdi.

### Mühüm mərhələ...



Amma 44 günlük müharibəyə qədər Zəfərə gedən yolda olduqca mühüm mərhələlər yaşanmışdı. 2020-ci ilin iyulunda baş verən Tovuz döyüşləri qələbəmizə gedən yolda olduqca vacib bir məqam kimi tarixə yazıldı.

İlk olaraq qeyd edək ki, Tovuz döyüşləri 2020-ci ilin iyul ayında Ermənistan-Azərbaycan sərhədində baş versə də, bu hərbi qarşıdurmanın təsirləri regional təhlükəsizlik və siyasi dinamika baxımından çox daha geniş miqyasda hiss olundu. Ermənistanın münaqişənin cəbhə xəttindən kənara çıxaraq Azərbaycanın Tovuz rayonuna hücumu, həm ölkənin kritik enerji və nəqliyyat infrastrukturuna yönəlmiş təxribat idi, həm də beynəlxalq diqqəti yayındırmaq məqsədi daşıyırdı. Azərbaycan Ordusunun qətiyyətli cavabı, şəhidlərin qəhrəmanlığı və xalqın misilsiz həmrəyliyi bu hadisəni təkcə sərhəd insidenti deyil, strateji dönüş nöqtəsi kimi tarixə yazdı. Tovuz döyüşləri, əslində, 44 günlük müharibənin siyasi və psixoloji əsaslarını formalaşdıran mühüm mərhələ idi.

### Qəhrəmanlıq salnaməsi...

Artıq Tovuz döyüşlərindən beş il ötür. Bütövlükdə, Tovuz döyüşləri Azərbaycan cəmiyyətinin monolitliyini, nə ilə nəfəs aldığını, düşüncələrdə hansı amalları daşıdığını ortaya qoydu. Göstərdi ki, bizim üçün milli maraqlar, ərazi bütövlüyümüz keçilməz qırmızı xəttdir. Azərbaycanın şərəf tarixinə "Beş günlük müharibə" kimi düşən Tovuz döyüşləri müzəffər Ordumuzun qəhrəmanlıq salnaməsinə çevrildi. Döyüşlərin ilk günündə, 12 iyulda Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutaraq hücuma keçməyə cəhd göstərdilər. Ordumuzun layiqli cavabı ilə geri oturdulan düşmən böyük itki verdi - döyüşlərdə Silahlı Qüvvələrimizin üç hərbi qulluqçusu şəhid oldu, beş nəfər isə yaralandı. İyulun 13-də isə Ermənistan hərbi birləşmələri gərginliyi daha da artırmaq məqsədilə iriçaplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, minaatanlardan və digər artilleriya qurğularından da istifadə etməklə Ordumuzun mövqelərinə, o cümlədən Tovuz rayonunun Ağdam kəndinə minaatanlardan yenidən atəş açdılar - bu mübarizədə böyük qəhrəmanlıq nümayiş etdirən ordumuzun bölmələrinin dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, avtomobil texnikası və canlı qüvvəsi məhv edildi.



İyulun 13-də Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Bildirildi ki, hərbi birləşmələrimiz düşmənin fəaliyyətinin qarşısının alınması məqsədilə zəruri tədbirlər görüblər. Həmin gün döyüşlər zamanı dörd hərbi qulluqçumuz şəhidlik zirvəsinə ucaldı. Ordumuzun bölmələri şəhidlərimizin qanını yerdə qoymadılar - görülən cavab tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin bir neçə hərbi obyekti və texnikası, həmçinin atəş mövqeləri, radiolokasiya stansiyası, şəxsi heyəti, tabor qərargahı və hərbi infrastrukturu darmadağın edildi.

İyulun 13-dən 14-nə keçən gecə isə qızğın döyüşlər davam etdi - düşmənin aktiv fəaliyyətinin qarşısının alınması məqsədilə görülən tədbirlər nəticəsində ona məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, müdafiəsinin dərinliyindəki ehtiyatlar və canlı qüvvəsi məhv edildi. İyulun 14-də Ermənistan silahlı birləşmələri tərəfindən Tovuz rayonunun Ağdam, Əlibəyli və Dondar Quşçu kəndləri iriçaplı silahlardan və artilleriya qurğularından atəşə məruz qoyuldu. Həmin gün döyüş zamanı müdafiənin ön xəttində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov və polkovnik İlqar Mirzəyev, eləcə də düşmən hücumunun qarşısını alarkən beş hərbi qulluqçumuz qəhrəmancasına şəhidlik zirvəsinə ucaldılar. Bu, Silahlı Qüvvələrimizin general və digər yüksəkrütbəli zabitlərinin əsl vətənpərvərliyini, cəbhənin ön xəttində döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirmələrini dünyaya nümayiş etdirdi. Həmin gün davam etdirilən cavab tədbirləri sayəsində Azərbaycan Ordusu şəhidlərimizin qisasını aldı. Digər günlərdə də düşmənin atəşləri, hücumları ordumuz tərəfindən layiqincə cavablandırıldı.

### Milli birlik, milli iradə...

Döyüşlərin davam etdiyi 5 gün ərzində Azərbaycan xalqı bir yumruq kimi birləşərək Ali Baş Komandanın əmrinə hazır olduğunu nümayiş etdirdi. İyulun 14-dən 15-nə keçən gecə on minlərlə gənc paytaxtımızda yürüş edərək Azərbaycan Ordusuna dəstəyini göstərdi. Növbəti günlərdən başlayaraq, çoxsaylı azərbaycanlı gənc ordu sıralarına yazılmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bölmələrinə müraciət etdi. Nazirlər Kabinetinin iyulun 15-də keçirilmiş iclasında Prezident, Ali Baş Komandan İlham Əliyevin "Əgər kimsə, hansısa vətənpərvər insan orduda xidmət etmək istəyirsə, mən bunu ancaq alqışlayıram" çağırışına səs verən minlərlə vətəndaşımız Xidmətin yerli idarə, şöbə və bölmələrinə gələrək könüllü şəkildə orduda xidmət etmək barədə arzularını bildirib və müvafiq qaydada qeydiyyata alındılar.

### Tovuzdan Xankəndiyə...

1990-cı illərin əvvəlində başqa dövlətlərin köməyi ilə, ölkədəki səriştəsiz AXC-Müsavat hakimiyyətinin varlığından istifadə edərək Azərbaycan torpaqlarını işğal edən Ermənistan Tovuz döyüşləri ilə əsl reallığı anladı - artıq Azərbaycan regionun ən nizami, dünya reytinqində yüksək yerlərdə təmsil olunan ordusuna sahib idi. Vaxtilə "qələbə"nin eyforiyasına dalaraq özləri haqda "yenilməz" mifi yaradan Ermənistanın bütün yalanları üzə çıxdı. Tovuz döyüşləri 44 günlük müharibənin ilkin anonsuna çevrildi - ermənilər anladılar ki, ildən-ilə güclənən Azərbaycanın qarşısında duruş gətirə bilməyəcəklər.

Azərbaycan Ordusuna gəldikdə isə, bütün gücünü ortaya qoyan əsgər və zabitlərimizə Vətən həsrəti, işğal altındakı torpaqların azadlığı hissi əlavə güc verirdi. Onlar hər an doğma torpaqları erməni işğalından azad etməyə hazır olduqlarını Tovuz döyüşlərində əyani şəkildə ortaya qoydular. Azərbaycan Ordusu bir daha göstərdi ki, düşmənin istənilən təxribatının qarşısını almağa və torpaqlarımızı işğaldan azad etməyə hazır və qadirdir. 2020-ci il Vətən müharibəsində, 2023-cü il antiterror tədbirlərində bu güc, qüdrət və qətiyyət açıq şəkildə ortaya qoyuldu. Tovuzdan başlanan azadlıq yolu Xankəndində öz məntiqi və ədalətli nəticəsini göstərdi...

**P.SADAYOĞLU**

# 8-ci səfər...

## İslahatçı, açıq və dialoqa əsaslanan siyasi sistem bu səfərlərlə daha da möhkəmlənir

Ölkəmizdə formalaşan yeni siyasi münasibətlər sistemi, yeni siyasi konfiqurasiya milli birliyimizin möhkəmlənməsinə, milli gücümüzün daha da artmasına yol açıb. Təbii ki, bütün uğurlar birmənalı şəkildə Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir - dövlətimizin inkişaf strategiyası mühüm təməllərə əsaslanır. Bu gün Azərbaycanda heç bir dövlətdə rast gəlinməyəcək reallıq formalaşıb. Belə ki, ölkədə bütün sosial təbəqələrin nümayəndələri dövlət və milli maraq kontekstini ən vacib amil sayır, siyasi konfiqurasiya sağlam ideoloji tarazlığı özündə əks etdirir - milli maraqlar, dövlət maraqları ön planda tutulur, daxili siyasi mühit dövlətin milli birlik simvolu kimi çıxış edir. Beləliklə, birmənalı şəkildə demək olar ki, Azərbaycandakı mövcud sabit və təhlükəsiz siyasi durum həm də siyasi palitranın mövcud reallıqlarda dövlət mənafeyindən irəli gələn addımlara və ya fikirlərə əsaslanmasından qaynaqlanır. Siyasi mühitin milli maraqlar ətrafında sıx birləşməsi, dövlətin inkişaf hədəflərinin düzgün təhlili, strateji inkişaf yolundakı inam və etimad yeni siyasi konfiqurasiyanın üstünlüklərini tam şəkildə özündə ehtiva etmiş olur.





### Siyasi dialoqun növbəti təcəssümü...

Vurğulanmalıdır ki, dövlətin siyasi mühitlə əlaqələri son illərdə olduqca vacib konturlar üzrə müəyyənləşdirilir. Xüsusilə işğaldan azad edilmiş və ötən illər ərzində yeni inkişaf mərhələsi əldə etmiş rayonlara edilən birgə səfərlər prosesin geniş ictimaiyyət üçün ştrixlərinin açıq olmasını şərtləndirir. Eyni zamanda, siyasi partiya sədrlərinin işğaldan azad olunmuş ərazilərə səfərləri ölkəmizdə təşviq edilən siyasi dialoq mühitinin ayrılmaz hissəsidir. Demokratik ənənələrin dərinləşməsinə xidmət edən bu təcrübə Azərbaycan cəmiyyəti tərəfindən rəğbətlə qarşılanır və fəal şəkildə dəstəklənir. Dialoq mühiti siyasi müstəvidə tərəflər arasında etibarlı və güvənli münasibətlərin formalaşdırılmasına xidmət edir. Son illər ərzində Ağdam, Şuşa (2 dəfə), Zəngilan (2 dəfə), Xocalı, Əsgəran, Xankəndi, Laçın və Cəbrayıla təşkil olunmuş bu cür səfərlər artıq müsbət demokratik ənənəyə çevrilmiş, onların reallaşdırılması isə cəmiyyətdə həmrəylik mühitinin qorunmasına, habelə xalqın intellektual potensialının səfərbər edilməsinə xidmət edir. Təsadüfi deyil ki, ölkənin siyasi ritorikasında ən çox rast gəlinən "siyasi dialoq" məfhumu, eyni zamanda, Azərbaycanın siyasi gündəliyinə də daxil olub. Ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə növbəti səkkizinci birgə səfəri də məhz ölkədə mövcud açıq iqtidar-müxalifət dialoqunun bilavasitə təzahürüdür.

Ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin və nümayəndələrinin, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri və qəzet redaktorlarının iştirakı ilə növbəti səfəri iyulun 10-da Ağdam şəhərinə təşkil olunub. İşgüzar və fəal fikir mübadiləsi şəraitində keçirilmiş səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Ağdamda siyasilərin qarşısında çıxış edərək demokratik ənənələrin dərinləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində görülmüş işlər haqqında geniş məlumat verib. Sağlam və etibarlı əməkdaşlıq mühitinin siyasi sabitliyin, dayanıqlı inkişafın əsas və prinsipial göstəricilərindən olduğunu vurğulayan Administrasiya rəsmisi bildirib ki, mövcud istiqamətdə əldə edilmiş bütün uğurların əsasında məhz Prezident İlham Əliyev tərəfindən nümayiş olunan siyasi iradə dayanıb.




Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəh-

### Sağlam və etibarlı əməkdaşlıq mühiti...

bərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbənin müasir Azərbaycan tarixinin ən qürurlu səhifəsi olduğunu bildirən Ədalət Vəliyev qeyd edib ki, bütün uğurların qorunmasında həmrəylik mühitinin müstəsna rolu var. Siyasi sabitlik, xalqın əzmkarlığı, cəmiyyətimizdə yaşanan milli həmrəylik mühiti və dönməz ali siyasi iradə Azərbaycanın inkişafının və beynəlxalq müstəvidə nüfuzunun artırılmasının əsaslarıdır.

Həqiqətən də, bu səfərlər göstərir ki, partiyalar arasında siyasi baxışlarına, ideoloji əsaslara görə fərqlər olsa da, əsas məsələlərdə - ərazi bütövlüyü, suverenlik, dövlət müstəqilliyinin qorunması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi kimi fundamental mövzularda tam konsensus mövcuddur. Ağdama birgə səfər bu baxımdan yalnız siyasi həmrəylik aktı deyil, həm də regionda həyatın bərpası və quruculuq işlərinə verilən siyasi dəstəyin ifadəsidir.

### Yeni Ağdamla tanışlıq...

Səfər iştirakçıları Ağdam Dəmiryol və Avtovağzal Kompleksinin fəaliyyəti ilə yaxından tanış olublar. Daha sonra Xıdırlı kəndində görülən inşaat işləri haqqında geniş məlumat verilib. Ağdam Muğam Mərkəzi, Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbi, Ağdam Konqres Mərkəzi və Ağdam City Hotel mehmanxanasında olmuş qonaqlar, eyni zamanda, İmarət Kompleksi və Cümə Məscidini də ziyarət ediblər. Bildirilib ki, Ağdamda qısa müddət ərzində görülən işlərin timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan genişmiqyaslı işlər Azərbaycan dövlətinin iqtisadi qüdrətini nümayiş etdirir. Qeyd olunub ki, görülən işlərin sürəti və yüksək keyfiyyəti Qarabağın dünyanın ən füsunkar məkanlarından birinə çevriləcəyindən xəbər verir. Eyni zamanda, Ağdam Sənaye Parkı haqqında da geniş məlumat verilib. "Böyük Qayıdış" Proqramı çərçivəsində görülən işlər haqqında səfər iştirakçılarına məlumatların verilməsi zamanı bildirilib ki, Ağdamın turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq. Ağdamda beynəlxalq tədbirlərin keçirilməsi faktı isə bütün Qarabağın dünyanın siyasi xəritəsində nüfuzlu məkanlarından birinə çevrilməsi deməkdir.

### İctimai mesaj...

Bu kimi səfərlər ictimai rəyə mühüm mesajlar verir. Cəmiyyət ölkədə siyasi qarşıdurmanın deyil, sağlam dialoqun, qarşılıqlı anlayışın və ortaq məsuliyyətin olmasını əyani surətdə müşahidə edir. Bu, xalqla hakimiyyət, partiyalarla seçicilər arasındakı inam bağlarını da gücləndirir. Milli birliyin bu formada təşviqi, gələcək siyasi sabitliyin və davamlı inkişafın ardıcıllığını təmin edir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa işləri fonunda ölkə daxilində siyasi güclərin koordinasiyası, həmrəyliyi strateji əhəmiyyət daşıyır. Ağdam səfəri bu mənada yalnız keçmişə hörmət deyil, gələcəyə inam və birgə məsuliyyətin rəmzi kimi də xarakterizə etmək olar. Yeni siyasi konfiqurasiya - yəni islahatçı, açıq və dialoqa əsaslanan siyasi sistem bu səfərlərlə real möhkəmlik qazanır.

Eyni zamanda, digər partiyaların nümayəndələri işğaldan azad edilməiş bölgələrdə görülən işlərlə real şəkildə tanış olmaq imkanı əldə edir.

Paralel olaraq, siyasi partiya və KİV nümayəndələrinin Ağdama birgə səfəri Azərbaycanın daxili siyasi dinamikasında milli maraqların hər şeydən üstün tutulduğunu bir daha sübut edir. Artıq 8-ci dəfə gerçəkləşən bu səfərlər həm də beynəlxalq ictimaiyyətə ölkəmizdə siyasi institutların yetkinliyini, ümummilli məsələlərdə vahid mövqe sərgiləməyi bacardığını nümayiş etdirir. Gələcəkdə bu kimi təşəbbüslərin daha geniş miqyas alması ölkədə milli həmrəylik modelinin daha da güclənməsinə, yeni siyasi mədəniyyətin oturuşmasına və Azərbaycanın strateji məqsədlərinə nail olmasına xidmət edəcəkdir.

***P.İSMAYILOV***

# Gender bərabərliyinin təşviqi üçün...

## Mühüm müzakirə aparıldı

Dünən Bakıda Ümumdünya Əhali Gününə həsr olunmuş tədbir baş tutub. Tədbirdə Milli Məclisin komitələrin və komissiyaların işinin təşkili şöbəsinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai şuranın üzvləri iştirak ediblər. Müzakirələr zamanı ölkəmizdə demoqrafik vəziyyət, gender bərabərliyi və selektiv abortlarla bağlı fikir mübadiləsi aparılıb.

Məlumdur ki, dünyanın bir sıra ölkələrində aktual problemlərdən biri də doğulan uşaqların cinsə görə nisbətinin pozulmasıdır. Hamiləliyin süni şəkildə pozulması faktı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə aktuallıq kəsb edir.

**Maarifləndirmə aparılmalıdır...**

Tədbirdə çıxış edən Parlamentin Komitə və komissiyalarla iş sektorunun məsləhətçisi Aynur Veysəlova bildirib ki, Azərbaycanda selektiv abort birbaşa qanunla qadağan edilməsə də, mövcud qanunvericilik çərçivəsində bu problemin qarşısını almaq üçün bəzi addımlar atılıb: "2023-cü ildən etibarən Ailə Məcəlləsinə və "Səhiyyə haqqında" Qanuna edilən təkliflər selektiv abortlara dolayı şəkildə toxunur. Mütəxəssislər hesab edirlər ki, hüquqi islahatlar yetərli deyil. Hüququn tətbiq mexanizmləri, xüsusilə, özəl klinikalarda nəzarət sistemlərinin gücləndirilməsi zəruridir. Qanunverici tədbirlərlə yanaşı, ailə və cəmiyyət səviyyəsində gender bərabərliyinin təşviqi, qız uşaqlarının dəyərini artıran maarifləndirici proqramların həyata keçirilməsi də vacibdir. Bu, selektiv abortlara qarşı davamlı və effektiv mübarizənin əsasını təşkil edə bilər".

A.Veysəlovanın sözlərinə görə, son illərdə ölkəmizdə selektiv abortların artması ciddi sosial və demoqrafik narahatlıq doğurur: "Cinsiyyət əsaslı abortların yayılması, xüsusilə, texnologiyalardan, o cümlədən ultrasəs müayinələrindən sui-istifadə nəticəsində baş verir. Erkən mərhələlərdə cinsin müəyyənləşdirilməsi tibbi zərurətdən daha çox sosial üstünlüklərə əsaslanan seçim məqsədilə həyata keçirilir. Hüquqi müstəvidə selektiv abortlar birbaşa qadağan edilməsə də, bu sahədə mövcud nəzarət və monitorinq mexanizmləri kifayət qədər təsirli deyil. Özəl tibb sektorunda isə bu məsələdə daha ciddi boşluqlar müşahidə olunur. Belə halların qarşısının alınması üçün hüquqi tənzimləmələrlə yanaşı, praktikada icra mexanizmlərinin də gücləndirilməsinə ehtiyac var".

Onun sözlərinə görə, statistik göstəricilərdə də bu tendensiyanın izləri görünməkdədir: "Rəsmi abort statistikalarında cinsiyyətə dair məlumatlar yer almasada, doğulan uşaqların cins nisbətləri əsasında selektiv abortların mövcudluğu müəyyən olunur. Belə ki, bəzi illərdə oğlan uşaqlarının doğulma nisbətindəki süni artım bu sahədə narahatedici gedişatı göstərir. 2020-ci ildə Nazirlər Kabineti tərəfindən təsdiqlənən "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" bu istiqamətdə müsbət addım sayılsa da onun praktiki tətbiqində ciddi çatışmazlıqlar qalmaqdadır. İndiyə qədər həyata keçirilmiş tədbirlər selektiv abortların qarşısının alınmasında gözlənilən nəticələri verməyib. Milli Məclisin üzvü olaraq, bu məsələni diqqət mərkəzində saxlayır və müvafiq qurumları daha səmərəli tədbirlərin görülməsi üçün koordinasiyalı fəaliyyətə çağırıram. Cinsiyyətə əsaslanan abortların qarşısının alınması, təkcə hüquqi məsələ deyil, həm də sosial ədalət və gender bərabərliyinin təminatı baxımından mühüm əhəmiyyət kəsb edir".




**Son 20 ildə...**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai şuranın üzvü Məryəm Məcidovanın sözlərinə görə, Dövlət Statistika Komitəsinin (DSK) məlumatlarına əsasən, Azərbaycanda son onilliklərdə doğulan hər 100 qıza 112-115 oğlan düşür: "Bu göstərici təbii bioloji normadan əhəmiyyətli dərəcədə yüksəkdir və cinsi selektivliyin, yəni cinsə görə abortların mövcudluğuna işarə edir.

Tədqiqatlara görə, son 20 ildə on minlərlə qız uşağı yalnız cinslərinə görə doğulmayıb. Bu, təkcə demoqrafik tarazlığı pozmaqla kifayətlənmir, eyni zamanda, gələcəkdə ailə qurmaqda çətinliklər, gender zorakılığı və insan alveri kimi sosial təhlükələrin də əsasını qoyur".

**Sosial və mədəni stereotiplər**

Məryəm Məcidova bildirib ki, Azərbaycanda selektiv abort hallarının əsas səbəblərindən biri ailələrdə hələ də mövcud olan sosial və mədəni stereotiplərdir: "Oğlan uşaqları ənənəvi olaraq varis, ailənin təminatçısı və nəsil davamçısı kimi qəbul edilir. Bu düşüncə, xüsusilə, kənd yerlərində daha güclü hiss olunur.

Qızların ərə getdikdən sonra "başqa ailəyə keçməsi" anlayışı valideynlərdə iqtisadi və psixoloji narahatlıq yaradır. Nəticədə bəzi ailələr qız övladına sahib olmaq istəmir. Bu da cinsə görə abortlara gətirib çıxarır. Belə dərin köklü sosial stereotiplərlə mübarizə yalnız qanunvericiliklə deyil, eyni zamanda, təhsil və ictimai maarifləndirmə vasitəsilə aparılmalıdır. Gender bərabərliyinin təbliği bu istiqamətdə əsas strategiyalardan biri ola bilər".

***Səlim***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə hazırlanmışdır

# Ukrayna necə bərpa ediləcək?

Müharibənin davam etməsi Ukraynaya böyük ziyan vurub. İnsan itkisi ilə yanaşı, bu ölkədə dağıntılar da kifayət qədər çoxdur. Bu da iqtisadiyyatın və əhalinin sosial vəziyyətinin ağırlaşmasına səbəb olub. Ona görə də, Ukraynanın bərpası üçün milyardlarla dollar vəsait lazımdır. Bu məsələ beynəlxalq birliyin də diqqət mərkəzindədir.

Yeri gəlmişkən, 10-11 iyulda İtaliyanın paytaxtı Roma Ukraynanın Bərpası Konfransına ev sahibliyi edib. İtaliya və Ukrayna hökumətləri konfransda iştirakla bağlı 100-dək ölkəyə, onlarla beynəlxalq və maliyyə təşkilatına, 2500 şirkətə, yerli hakimiyyət orqanlarına, iki ölkənin və beynəlxalq vətəndaş cəmiyyəti birliklərinə dəvət göndərib. Konfransda Ukraynanın yenidən qurulması, islahatlar və modernləşdirilmə planları kimi məsələlər müzakirə olunub. İki günlük konfransda sahibkarlıq, humanitar, yerli, regional və Avropa İttifaqına üzvlük prosesində islahatlara dair mövzular da diqqət mərkəzində olub.




## Vatikan sülh danışıqlarına ev sahibliyi etməyə hazırdır

Konfransdan əvvəl Ukrayna Prezidenti Volodimir Zelenski İtaliya Prezidenti Sercio Mattarella ilə görüşüb. Görüşdə iki ölkə arasında dostluq, İtaliyanın Ukraynanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə hərtərəfli dəstəyi ilə bağlı fikir mübadiləsi aparılıb. Sercio Mattarella ölkəsinin mövqeyinin tamamilə qəti olduğunu və Ukraynaya hərtərəfli dəstək olacağını bildirib.

Roma Katolik Kilsəsinin rəhbəri Papa XIV Leo isə Ukrayna Prezidentini İtaliyanın paytaxtından təxminən 25 kilometr məsafədə yerləşən Kastel Qandolfo qəsəbəsindəki iqamətgahında qəbul edib. Papa Leo Rusiya və Ukrayna nümayəndələrini danışıqlar üçün Vatikanda qarşılamağa hazır olduğunu bir daha qeyd edib. Görüşdə sülhə aparan ədalətli və davamlı yolların aktuallığı, bunun üçün də dialoqun vacibliyi vurğulanıb.

## Ukraynanın bərpasına 500 milyard avro lazımdır

Qeyd edək ki, Dünya Bankının münaqişə nəticəsində dəyən zərərlə bağlı ən son qiymətləndirməsində yenidənqurma işlərinin ümumi dəyəri 500 milyard avro təşkil edir. Hesablamalara görə, növbəti 10 il ərzində nəqliyyat sektorunun yenidən qurulması üçün təxminən 78 milyard dollar tələb olunur. Bu məbləğdən təkcə dəmir yolu sektorunun bərpası təxminən 15 milyard dollar investisiya tələb edir.

Konfransda çıxış edən V.Zelenski deyib ki, ölkəsi bərpa və yenidənqurma üçün böyük koalisiya yaratmağa çalışır. Onun sözlərinə görə, Ukraynanın yenidən qurulması üçün Marşal planına ehtiyac var. Zelenski 10 milyard avrodan çox ümumi dəyəri olan təxminən 200 sazişi imzalamağa hazır olduğunu bəyan edib. Onun sözlərinə görə, ölkə rəhbərliyinin növbəti aylarda prioriteti enerji sahəsi olacaq: "Hamımız Rusiyaya təzyiq göstərməyə davam etməli və mümkün qədər tez real atəşkəsə nail olmaq üçün müdafiəni gücləndirmək üzərində işləməliyik".

## Ukrayna üçün 10 milyard avro öhdəlik...

Tədbirə ev sahibliyi edən İtaliyanın Baş naziri Ciorcia Meloni isə bildirib ki, Romada keçirilən konfransın iştirakçıları Ukraynaya kömək etmək üçün 10 milyard avrodan çox (11,73 milyard dollar) vəsait vəd ediblər. "Düşünürəm ki, biz - millətlər, beynəlxalq təşkilatlar, maliyyə institutları, yerli hakimiyyət orqanları, biznes sektoru və vətəndaş cəmiyyəti bu gün birlikdə əldə etdiyimiz nəticə ilə fəxr etməliyik. Biz bu konfransda 10 milyard avrodan çox öhdəlik götürdük", -deyə Meloni açılış nitqində vurğulayıb.

Bununla yanaşı, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen də Ukraynanın bərpası və yenidən qurulması səylərini dəstəkləmək üçün beynəlxalq və ikitərəfli dövlət maliyyə institutları ilə birlikdə 2,3 milyard avroluq yeni sazişlər paketini açıqlayıb. O qeyd edib ki, bu, Aİ-nin Ukraynanın bərpasına və onun Aİ-dəki gələcəyinə sadiqliyini göstərir.

"Reuters" agentliyinin məlumatına görə, Ukrayna İnvestisiya Planı çərçivəsində beynəlxalq və ikitərəfli dövlət maliyyə institutları ilə imzalanmış yeni 2,3 milyard avroluq sazişlər paketinə 1,8 milyard avro kredit zəmanəti və 580 milyon avro qrant daxildir. Ukraynaya 10 milyard avroya qədər investisiyanın səfərbər ediləcəyi gözlənilir.

Bundan əlavə, ötən il Berlində keçirilmiş Ukraynanın Bərpası Konfransında öz öhdəliyini yerinə yetirən Fon der Lyayen Avropa komandası yanaşmasında Ukraynanın ən böyük səhm fondunu elan edib: Avropa Komissiyası tərəfindən dəstəklənən Ukraynanın yenidən qurulması üçün yeni Avropa Flaqman Fondu Fransa, Almaniya, İtaliya və Polşa vasitəsilə bu missiyanı həyata keçirəcək.

İlkin kapitalı 220 milyon avro olan fond 2026-cı ilə qədər 500 milyon avro səfərbər etməyi hədəfləyir, həmçinin təhlükəsizlik şəraitinin yaxşılaşması ilə daha çox vəsait toplamaq nəzərdə tutulur. Flaqman Fondu Ukraynada özəl kapital ekosisteminin inkişafına kömək edəcək, yeni maliyyə vəsaitləri cəlb edəcək və mövcud bazar oyunçuları ilə birgə fəaliyyəti maksimum dərəcədə artıracaq. Avropa Komissiyasının prezidenti deyib: "Bu gün Aİ Ukraynanın ən güclü tərəfdaşı rolunu bir daha təsdiqləyir, təkcə onun əsas donoru deyil, həm də gələcəyinin əsas investorudur. İmzalanmış 2,3 milyard avroluq sazişlərlə biz binaların yenidən inşası, xəstəxanaların açılması, biznesin canlandırılması və enerji təhlükəsizliyinin təmin edilməsi məqsədləri üçün 10 milyard avroya qədər sərmayə açmağı hədəfləyirik. Bu, hər gün Ukraynanın Aİ-yə daha bir addım yaxınlaşması deməkdir. Avropa bu gün və sabah Ukraynanın yanındadır".

**N.BAYRAMLI**

# Pedaqoji fikir tariximizdə İrəvan Müəllimlər Seminariyası

İrəvan şəhəri tarixən Azərbaycan türklərinin yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır. İrəvan xanlığı Çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilmişdir. XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və digər şəhərlərlə yanaşı, İrəvan azərbaycanlıların aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur.



Azərbaycanın elm və mədəniyyət tarixinə "İrəvani" təxəllüsü ilə daxil olmuş və öz önəmli töhfələrini vermiş xeyli alim, ədəbiyyat və incəsənət xadimləri var.

İrəvan ədəbi-mədəni, ictimai-siyasi mühitinin görkəmli nümayəndələrinin Şərq elmində, ədəbiyyatında, mədəniyyətində oynadığı müstəsna rolun təsiri bu gün də duyulur. Həmin ərazilərin əsl sakinləri və sahibləri azərbaycanlılar olsa da, tarixin müxtəlif dövrlərində zor gücünə öz əzəli torpaqlarında yaşamaq hüququndan məhrum edilmişlər.

Amma bütün dolanbac, keşməkeşli yollara baxmayaraq bəşər tarixi xalqlararası münasibətlərdə tədricən ədalət prinsiplərinin bərqərar olması ilə xarakterizə olunur. Bu baxımdan, XIX və XX əsrlərdə nankor, faşist xislətli ermənilər zaman-zaman Azərbaycan xalqını amansız repressiyalara düçar etdi.

Erməni vandallarının gizli, gah açıq, gah rəsmi, gah da qeyri-rəsmi şəkildə Ermənistanda azərbaycanlıların maarifini, mədəniyyətini, incəsənətini sıxışdırmaqla bağlı siyasətləri İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin öz böyük potensialını bütöv şəkildə gerçəkləşdirməyə imkan verməmişdir.

Məlumdur ki, XIX əsrin 70-ci illərində bütün Qafqazda dünyəvi fənlər tədris edən məktəb, bu fənlərdən dərs demək üçün pedaqoji kadrlar hazırlayan təhsil ocağı yox idi. Azərbaycanda olduğu kimi, İrəvanda da dünyəvi məktəblər açılana qədər təlim müəssisəsi kimi yalnız məscidlərin nəzdində mollaxanalar və mədrəsələr fəaliyyət göstərmişdir.

XIX əsrin iyirminci illərində İrəvan xanlığının əhalisinin kameral siyahıya alınmasını və inzibati ərazi bölgüsünün təsvirini hazırlayarkən İrəvan şəhərində Zal xan, Sərtib xan, Hüseynəli xan, Hacı İmamverdi, Hacı Cəfər bəy məscidlərinin mövcudluğu barədə məlumat verilir.

Bundan başqa, İrəvanda dağıdılmış digər iki məscidin qalıqlarının olduğu da qeyd edilir. Məscidlərin hər birinin nəzdində mollaxana və mədrəsə fəaliyyət göstərirdi ki, burada da İrəvandan və müxtəlif bölgələrdən onlarla gənc gəlib dini təhsil alırdılar. Həmin dövrdə təkcə Hüseynəli xan məscidinin nəzdində fəaliyyət göstərən mədrəsədə təhsil alan şagirdlərin sayının 200 nəfər olduğu barədə məlumat verilirdi.

XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyillərin yaranmasına səbəb oldu. Artıq təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə tənəzzülə uğrayır, öz yerini dünyəvi məktəblərə verirdi.

Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, İrəvanda ilk qəza məktəbinin 1831-ci ilin mart-oktyabr aylarında açılmasına ciddi səy göstərilsə də, hansısa səbəblərdən həmin ildə bu təşəbbüsün gerçəkləşdirilməsi mümkün olmamışdı. Müəyyən səbəblərdən sonra 14 yanvar 1832-ci ildə İrəvanda ilk qəza məktəbi açılmışdır. Bu hadisə bütövlükdə bölgədə qabaqcıl maarifçilik ideyalarının yayılmasında əhəmiyyətli dərəcədə rol oynamışdır.

İrəvanda açılan ilk qəza məktəbində müxtəlif millətlərin uşaqları ilə yanaşı, azərbaycanlı uşaqlar da təhsil almağa başladılar. 1832-ci ildə açılan İrəvan qəza məktəbi, 1869-cu ildə progimnaziya, 31 mart 1881-ci ildən isə 5 sinifli gimnaziyaya çevrildi.

1836-cı ildən 1869-cu ilə qədər İrəvan qəza məktəblərində 301, 1869-cu ildən 1881-ci ilədək isə 359 azərbaycanlı təhsil almışdır. İldən-ilə istər qəza məktəbində, istərsə də sonralar progimnaziyaya çevrilmiş təhsil ocağında oxuyan azərbaycanlıların sayı artmışdır.

Çar hökuməti qəza məktəblərində müəllim kadrlar ilə bağlı yaranmış ehtiyacı təmin etmək üçün Cənubi Qafqazda pedaqoji müəllim seminariyalarını təşkil etməyə başladı. Rusiya Dövlət Şurasının 20 oktyabr 1880-ci il tarixli qərarına əsasən yaradılan bu tip müəssisələrdən biri də təhsil tariximizdə əhəmiyyətli dərəcədə böyük rol oynamış, zəngin və tarixi yol keçmiş İrəvan Müəllimlər Seminariyasıdır.

1891-ci ildə Tiflisdə nəşr edilən "Qafqaz təhsil dairəsinin sərəncamları" adlı məlumat kitabında Qafqaz dairəsinin 17 iyun 1881-ci ildə verdiyi 3651 nömrəli sənəd vardır. Həmin sənəd İrəvan şəhərində müəllimlər seminariyasının açılması barədə Cənubi Qafqazın Baş Maarif İdarəsinə göndərdiyi izahatdır. İzahatda göstərilmişdir ki, Rusiya Dövlət Şurasının 20 oktyabr 1880-ci il tarixli sərəncamını nəzərə alaraq, 1881-ci ilin ikinci yarısı üçün İrəvan Müəllimlər Seminariyasına 14175 min rubl vəsait ayrılmışdır. 1882-ci il üçün bütöv ştat məsrəfi olaraq 28.350 rubl nəzərdə tutulmuşdur.

İrəvan Müəllimlər Seminariyasının həmin il üçün ştat cədvəli üzrə pedaqoji heyətin əməkhaqqı və digər məsrəf xərcləri müəyyənləşdirilmişdir. Seminariyanın ştat çərçivəsində müxtəlif fənlərlə yanaşı, Azərbaycan dili və şəriət dərslərinin tədris edilməsi də öz əksini tapmışdı. Yeri gəlmişkən, onu da qeyd edək ki, Cənubi Qafqazın müxtəlif şəhərlərində təşkil edilmiş seminariyalardan fərqli olaraq İrəvan Müəllimlər Seminariyasında Azərbaycan dili üzrə şəriət dərslərinin tədrisi təsadüfi deyil. Seminariyada Azərbaycan (tatar) dilinin və müsəlman dini üzrə şəriət fənninin tədris edilməsi bir tərəfdən mövcud dövrün tələbi idisə, digər tərəfdən isə qədim İrəvan şəhərində yaşayan yerli əhalinin 75 faizini azərbaycanlıların təşkil etməsi idi. İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri və tatar (Azərbaycan) dili müəllimi, dövrün görkəmli elm, mədəniyyət və din xadimi Axund Molla Məmmədbağır Hacı Mehdi oğlu Qazızadə təyin edilmişdir.

Rusiya Dövlət Şurasının qərarından bir il sonra 1881-ci il noyabr ayının 8-də İrəvanda pedaqoji kadrlar müəssisəsi - İrəvan Müəllimlər Seminariyası açıldı. Görünür, seminariyaların açılmasını ləngidən əsas səbəblərdən biri tədris binasının olmaması müəllimlərin bu təhsil ocağına cəlb edilməsi, şagird qəbulu, maliyyə çətinlikləri idi.

Araşdırmalar göstərir ki, İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladığı ilk vaxtlarda bir sıra çətinliklərlə üz-üzə qalmışdır. Seminariya fəaliyyətə başladığı ilk dövrdə tədris prosesi üçün lazımi səviyyədə əlverişli şəraitdən məhrum illik icarə haqqı 5 min rubl olan bir mərtəbəli binada yerləşmişdi.

İrəvan Müəllimlər Seminariyası 1905-ci ildə İrəvanın Daşlı küçəsində yeni inşa edilmiş ikimərtəbəli binaya köçmüşdü. Binanın 3-cü mərtəbəsinin tikilməsi üçün isə 1906-cı ildə xəzinədən 300.000 rubl vəsait ayrılmışdı.

Cənubi Qafqazda və digər şəhərlərdə fəaliyyət göstərən seminariyalar kimi, İrəvan Müəllimlər Seminariyası da öz tərkibinə görə beynəlmiləl tədris ocağı idi. Seminariyanın fəaliyyəti təkcə Ermənistan məktəbləri üçün kadrlar hazırlamaqla məhdudlaşmamışdı. Burada Cənubi Qafqaz bölgəsinin hər yerindən gənclər təhsil alırdı, bütün məzunlara kənd ibtidai məktəb müəllimi vəsiqəsi verilirdi.

1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası 40 ilə yaxın müddətdə müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksək ixtisaslı kadrlar hazırlamışdır.



***Cəlal Allahverdiyev,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# NATO-nun müttəfiqləri ödəyəcək...

## Ukrayna yeni ABŞ silahları ilə təmin olunacaq

Yaxın zamanda Ukrayna ordusu yeni ABŞ silahları ilə təmin olunacaq. Artıq ABŞ ilə Avropa ölkələri arasında bu barədə razılıq əldə olunub. Belə ki, ABŞ-ın NATO-dakı müttəfiqləri, yeni razılaşmaya əsasən, Ukraynaya göndəriləcək Amerika silahlarının pulunu tam ödəyəcəklər. ABŞ Prezidenti Donald Tramp "NBC News" telekanalına müsahibəsində deyib ki, NATO-dakı müttəfiqlər bununla bağlı öhdəlik götürüblər: "Biz silahları NATO ölkələrinə göndərəcəyik və sonra alyans bu silahları Ukraynaya verəcək, NATO isə bu silahların pulunu ödəyəcək", - deyə Ağ Evin rəhbəri bildirib. Amerika lideri Şimali Atlantika Alyansının iyun ayında keçirilən sammitində ABŞ silahlarının Ukraynaya tədarükü ilə bağlı prosedura dair razılaşmaların əldə edildiyini də diqqətə çatdırıb. Qərb KİV-lərinin məlumatına görə, rəsmi Kiyevə tədarük olunacaq ABŞ silahları Ukrayna ordusunun müdafiə qabiliyyətini gücləndirmək və rus ordusunun hücumlarının qarşısını almaq üçün nəzərdə tutulub. Eyni zamanda "Reuters" belə bir məlumat yayıb ki, Tramp Ukraynaya yeni silah paketi ayırmağı planlaşdırır. Agentlik bildirir ki, Ukrayna Silahlı Qüvvələri üçün silahlar Pentaqonun anbarlarından götürüləcək. 300 milyon dollar civarında olan silah paketinə "Patriot" raketləri və orta mənzilli hücum raketlərinin daxil edilməsi planlaşdırılır.

## Müttəfiqlərin hamısı razıdırmı?

Məsələ ilə bağlı politoloq İlqar Vəlizadə "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, NATO ölkələrinin hamısı buna müsbət yanaşmayacaq. "Böyük ehtimalla, NATO-ya üzv ölkələrin bir qismi bununla razı olmayacaq. Xüsusilə, Macarıstan buna öz etirazını bildirəcək. Çünki rəsmi Budapeştin Ukrayna məsələsində mövqeyi digər NATO ölkələrinin mövqeyi ilə ziddiyyət təşkil edir. Macarıstan hökuməti Ukraynanın silahlandırılmasına qarşı çıxır. Macarıstanla yanaşı alyansın bəzi üzv ölkələrinin də bu məsələdə fərqli mövqe sergiləyəcəyi istisna deyil. Amma istənilən halda ABŞ-ın bu istəyi baş tutacaq. Ukraynaya göndəriləcək ABŞ silahlarının pulu müttəfiqlər tərəfindən ödəniləcək," -deyə İ.Vəlizadə vurğulayıb ki, bunun özü ciddi mübahisələrə səbəb olacaq: "Ona görə ki, birincisi, sabahısı gün alyansın hər hansı bir ölkəsi də belə bir təşəbbüsə əl ata bilər, ikincisi isə Trampın bu cür planları NATO-nu təsərrüfat hesabına işləyən bir təşkilata çevrilməsi üçün şərait yaradır. Ona görə də bu, çox ciddi mübahisəli bir məsələ olacaq. Hər halda bu, ABŞ üçün münasibdir və Vaşinqtonun öz hədəflərinə nail olması üçün yol açacaq. Bu məsələ ətrafında geniş və ətraflı müzakirələr aparılacaq".






Politoloq İlyas Hüseynov qəzetimizə şərhində bildirib ki, Moskvanın davranışları Vaşinqtonun səbr kasasını doldurub. "Rusiya-Ukrayna müharibəsi ətrafında

## Trampı belə bir qərar verməyə nə sövq edib?

yeni siyasi vəziyyət formalaşır. Əvvəl Ukraynaya sərt mövqe sergiləyən Tramp indi bu mövqeyini dəyişmək qərarına gəlib. Sözsüz ki, belə bir vəziyyətin yaranmasına bir neçə faktor səbəb olub. İlk növbədə Ukrayna dövlətinin və Ukrayna xalqının burada qətiyyəti mühüm rol oynayıb. Ukrayna xalqı öz prezidenti Zelenskini dəstəkləyir və onun arxasında möhkəm dayanıb. Bununla bərabər, Zelenski də hər bir addımı ilə öz əzmkarlığını və qətiyyətini nümayiş etdirir. Sona qədər mübarizə aparmaq Zelenski üçün əsas prioritetə çevrilib. Lakin Rusiyaya qarşı mübarizəni davam etdirmək üçün Ukrayna mütləq yeni silahlarla təmin olunmalıdır. Digər tərəfdən Tramp ilə Putin arasında bir çox telefon danışıqları aparılsa da, bu danışıqlar heç bir müsbət nəticə verməyib. Tramp öz istədiyini əldə edə bilmir. Kreml Vaşinqtonun bütün təkliflərini rədd edir. Bu da Ağ Evin rəhbərini çox qəzəbləndirir. İndi Tramp Rusiyaya qarşı sərt tədbirlər görmək niyyətindədir,"- deyə İ.Hüseynov bildirib.

## Tramp məsuliyyəti bölüşür

"Bəli, böyük ehtimalla, ABŞ Ukraynaya yeni silahlar tədarük edəcək. Ancaq Vaşinqton bu məsuliyyəti NATO-dakı müttəfiqləri ilə bölüşəcək. Çünki ABŞ bununla həm özünün neytral və sülhpərvər mövqeyini qorumağa, həm də Rusiya-Ukrayna münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesində öz vasitəçilik missiyasını davam etdirməyə çalışacaq. Vaşinqton Ukraynada öz geoiqtisadi imkanlarını əldən buraxmaq istəmir,"-deyə İ.Hüseynov bildirib.

*Yunis ABDULLAYEV*

# Qəbulə xanım və I Pyotr

## Qan düşmənçiliyinin qısa tarixi

*əvvəli ötən saylarımızda*

Osmanlı Türkiyəsini önləmək üçün Xəzərətrafı bölgələrdə ilhaq planı ruslar üçün qaçılmaz idi. Bu torpaqlar təcili işğal olunmalıydı. Bakı, Salyan, Şirvan əhalisi rus işğalını dayandırmaq üçün istər Osmanlı sultanı III Əhmədə, istərsə də Səfəvi şahı II Təhmasibə müraciət etmişdilər. II Təhmasibin 1723-cü ilin avqustunda Bakı əhalisinə ünvanlanmış cavab məktubunda - fərmanında belə bir fraza var: Göstəriş buyurduq ki, Salyan hakimi öz qoşunu ilə birlikdə Bakının köməyinə gəlsin. Salyandan yardım üçün Bakıya göndərilməsi nəzərdə tutulan qoşunun say tərkibi 500 nəfərdən ibarət idi.

Tarixən Salyanda Osmanlı-Səfəvi münasibətləri ziddiyyətli və bəzən qanlı hadisələrlə müşayiət olunub. Tutaq ki, 1584-cü ilin yayında Səfəvi ordusunun komandanı Araz xan Rumlunun iqamətgahı Salyandaydı. "Tarixi-Osmani"nin yazdığına görə, o zaman Osman Paşa komandanlığı altında osmanlı ordusu Salyana girmiş və Səfəvi qüvvələrini zərərsizləşdirmişdi.

Nəzərə alınası məqamdır. Qəbulənin nəsli də məhz həmin illərdən etibarən Salyanı idarə etməyə başlayıb. Amma indi bunu dəqiqləşdirmək mümkün deyil ki, bu ailənin siyasi oriyentasiyası Səfəvi yönümlü, yoxsa Osmanlı istiqamətində-mi olub?

Maraqlıdır, Qəbulə xanımın timsalında salyanlılar bu torpaqlarda səfəvilər olmasa, o zaman osmanlıların hakimiyyətini istəyir, buna rəğmən, ruslara və Rusiyaya işğalçı gözüylə baxırdılar. Azərbaycan sovet tarixşünasları isə məsələnin tam əksini yazırdılar. Guya yerli əhali Osmanlı və İran irticasından xilas olmaq üçün Rusiyadan imdad istəyir... Nicatı "moskvitlərdən" gözləyir. Amma tarixdə salyanlıların bu barədə Rusiyaya müraciət etmələri barədə heç bir məlumat yoxdur. Əksinə, Azərbaycan türklərinin Osmanlı Türkiyəsinə ünvanladıqları başqa məzmunlu məktublar var: "Siz də türksünüz, biz də. Gavurun əlinə düşməkdənsə sizin əlinizə düşməyimiz yaxşıdır, vaxtında gəlin. Şəhəri zəbt edin, rusları şəhərə buraxmayın". Sovet tarixşünaslığında bütün bunlar ört-basdır edildi.

Əvəzində, kitablarda başqa mətləblərdən bəhs olundu. 1956-cı ildə nəşr olunmuş "XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi" kitabında belə bir qənaət ifadə olunub: "Hələ XVII əsrdən başlayaraq, Qafqaz xalqları tez-tez Rusiyaya müraciət edir, İran zülmündən qurtarmaq üçün onları öz himayəsinə almalarını xahiş edirdilər. Xüsusən, Gürcüstan və Ermənistan Rusiyaya arasıkəsilmədən müraciət edib, onları himayə etməyi xahiş edirdilər. Eyni zamanda azərbaycanlılar da türk və İran zülmündən qurtarmaq üçün Rusiyadan kömək gözləyirdilər. Məhz buna görədir ki, rus qoşunları Dərbəndə və Bakıya girdikdə əhali onları məhəbbətlə qarşılayıb, türk və İran zülmündən qurtardıqlarına sevinirdilər".

Azərbaycan tarixinin də, ədəbiyyatşünaslığının da XVIII yüzilin əvvəlləri üçün təlqin etmək istədiyi ideologiya bundan ibarətdir. Azərbaycana rus gəlir, Türk və İran zülmü bitir. Vaqifə, Vidadiyə qədərki ədəbiyyatımızın isə qəzəb və nifrət ünvanı əsasən osmanlı paşalarıdır. Yəni "Koroğlu" dastanı məhz bu dönəmdə intişar edir... Əslində, "Koroğlu" dastanının yarandığı dövrdə yadelli və işğalçı Rusiyadır.

Qəbulə xanım Azərbaycan tarixində bu faktı əyaniləşdirən yeganə qüvvə oldu. O, 1724-cü ildə Rusiya və Azərbaycan arasındakı siyasi əyarı müəyyənləşdirən tək adamdır. Amma əfsus ki, biləərəkdən unutdurulmuş milli simvoldur. Onu nə tarixçilərimiz əyaniləşdirdi, nə də ədəbiyyatımızda Qəbulənin qəhrəmanlığını vəsf edən hansısa bədii bir mətn yarandı.

Qəbulə xanımdan əvvəl Salyan rəsmən rus istilasına uğramışdı. 1724-cü il iyunun 12-də İstanbulda Rusiya-Osmanlı dövlətləri arasında bağlanmış əbədi sülh müqaviləsinə əsasən, Şərqi Ermənistan, İrəvan, Qarabağ, Təbriz, Şamaxı, Kartli, Kaxetiya Osmanlıya birləşdirilmiş, Rusiya isə istədiyinə nail olmuşdu. Yaxud Osmanlı ilə müqavilədən əvvəl, 1723-cü ilin 12 sentyabrında Rusiya ilə İran arasında imzalanmış Peterburq müqaviləsinin ikinci maddəsinin şərtlərinə görə Astaraabaddan Dərbəndə qədər, Salyan da daxil olmaqla, Mazandaran, Gilan, Bakı, yəni Azərbaycanın Xəzərətrafı ərazilərinin əbədilik Rusiyaya verilməsi nəzərdə tutulmuşdu. Amma bu müqavilə tarixdə saxta müqavilə adlandırılır. Saxta müqaviləni İran şahı II Təhmasibin elçisi sifəti ilə İrana Rusiyadan yardım istəmək üçün Sankt-Peterburqa getmiş İsmayıl bəy imzalamışdı. Bu arada İsmayıl bəyin elçi statusunu ləğv etmiş II Təhmasib onun imzaladığı hər hansı bir sənədi, o cümlədən, Xəzərətrafı torpaqların Rusiyaya verilməsi barədə sənədi tanımayacağını bəyan etmişdi. Məsələ burasındadır ki, rus qurnazlığının və basqısının nəticəsi olaraq İsmayıl bəyin müqaviləyə atdığı imza Azərbaycanın ruslar tərəfindən işğalında həlledici rol oynadı. Rusiya torpaqlarımızı Pyotrun zamanından etibarən zəbt etməyə başlayıb. Hər şeyə rəğmən, yəni II Təhmasibin etirazına baxmayaraq imzalanmış müqavilədən dərhal sonra Salyan ruslar tərəfindən ələ keçirilmiş və Qəbulə xanım da əsl Azərbaycan knyaginyası kimi davranmış, bir il öncə İsveçlə müharibədən qalibiyyətlə çıxdığına görə rəsmən "Vətənin atası", "Böyük Pyotr" və "Ümumrusiya imperatoru" adını qazanan I Pyotrun üzünə Azərbaycan adından ilk siyasi və milli şilləni çəkmişdi. Qəbulə xanımın 80 illik sovet tarixşünaslığında unutdurulmasının, adının tarix kitablarında yazılmamasının əsl səbəbi, heç şübhəsiz, onun Rusiyaya qarşı Azərbaycanda ilk direniş hərəkatının lideri olmasıdır. 1724-cü ilin sentyabrında rus zabitlərini məhv etməsi Qəbulə xanımın müstəqil hərəkət etdiyinə tanıqdır. Yoxsa, hansı səbəbdən bu qadın 1724-cü ildən sonra tarix səhnəsində, hətta epizodik olsa belə görünmür? I Pyotrun elə öz sağlığında, onun öz şəxsi katibləri və generallarıyla söhbətində Salyan hakiməsinin adı keçirmi? Keçir. Pyotr ətrafındakılara bu qadından ehtiyatlı olmağı tapşırırmı? Tapşırır. Salyan hakiməsinin, Zambulatov başda olmaqla, Rusiyanın ilk Salyan alayının bütün zabit heyətini evinə dəvət edib onlardan qisas aldığı Rusiyanın çox mühüm qaynaqlarında, Saymonovun, Puşkinin, Butkovun əsərlərində qeyd edilibmi? Edilib. Elə isə sonrakı dövrlərdə niyə heç kəs, heç bir mənbə onu xatırlamır? Həyatının 1724-cü ildən sonrakı mərhələsi barədə heç bir iz, soraq yoxdur. Axı Pyotrun Azərbaycan əhalisinə göndərdiyi manifestində "bizə qarşı çıxanlara şahanə əzab veriləcək" deyilirdi. Görəsən, Qəbuləyə verilən şahanə əzab necə olub?

Qəbulə kifayət qədər siyasi fiqurdur. Mübaliğəyə varmadan deyə bilərik, Azərbaycan tarixində onu yalnız Tomrislə müqayisə etmək olar. Bu qadın bir az əvvəl xatırlatdığım kimi, Rusiyanın işğalçılıq siyasətinə qarşı hərəkatın ilk lideri olub. Azərbaycanda ilk antirus dalğanı ilk dəfə o, Salyanda hərəkətə gətirib.

Əhali də Qəbulə xanımın arxasındaydı. Təəssüf ki, Rusiya-Azərbaycan əbədi dostluğunun cizgisində olan sovet dövrü ədəbiyyatımızda bu reallıq təhrif olunub: "Ey əhli-Salyan!.. Qəbulə xanım əfsəri cəzalandırmaq istəyir. Bu yaxşı işdirmi? Bunlar böyük bir məmləkətin, əsrlərin sınağından çıxmış bir dövlətin elçiləridir, buraya dostluq məqsədilə gəliblər. Dosta əl qaldırmaq olarmı? Qəbulə xanım, bax, bunu fikirləşməyib". Məlum kontekstdə isə tarixi faktın reallığı başqadır. Qəbulənin hakimliyi dönəmində Salyan iqtisadiyyatı balıqçılığın, tütün istehsalının, heyvandarlığın hesabına inkişaf edirdi. Bu mənada, Butkovun qeydləri çox diqqətçəkicidir: "Salyanın əhalisi Rusiyaya tabe olmaq istəmir..." Təbii ki, Rusiya bu yerlərə ordunu dostluq yaratmaq üçün deyil, torpaqları, yeraltı və yerüstü sərvətlərimizi mənimsəmək üçün göndərirdi. Ən başlıcası isə, Osmanlı dövlətinin Xəzər dənizinə çıxışının qarşısını almaq, o zamanın təbirincə, türkləri Xəzər sahillərinə buraxmamaq, Bakını Osmanlıya tərk etməmək üçün göndərirdi. Məsələnin siyasi tərəfi, yaxud siyasi pərdəarxası həm də və daha çox bundan ibarətdir.

Elə buna görə də hadisənin yalnız qisas amili ilə bağlanması problemin mahiyyətinə tam aydınlıq gətirmir. Doğrudur, Sara Aşurbəyli özünün böyük tarixçi entuziazmı ilə bunu 1670-ci ildə Stepan Razinin məhv etdiyi salyanlı xanımın qisası kimi dəyərləndirməsi qeyri-adi yanaşmadır.

Amma Qəbulə xanımın gerçəkləşdirdiyi aksiya, yuxarıda da qeyd etdiyim kimi, o dövrdə rus işğalına qarşı Azərbaycanda ilk böyük qiyam olaraq anlaşılmalı və dəyərləndirilməlidir. O dövrdə direniş hərəkatı nə Dərbənddə, nə Bakıda, nə Şamaxıda, nə də Gilanda var. Salyanda baş verən hadisə, dediyim kimi, 1724-cü il Azərbaycan reallığında müstəsnadır...

Dövr milli kimlik şüurunun hələ gəlişmədiyi dövrdür. Amma Qəbulənin bəsirəti milli kimlik anlayışının Azərbaycanda artıq pərvəriş tapdığının göstəricisidir. Rus tarixçiləri Pyotrun Qəbulədən ehtiyatlı olmağı tövsiyə etməsini müasirləri onun "peyğəmbər" uzağörənliyi ilə bağlayırlarsa, o zaman biz Qəbulənin qiyamını, cihadını necə adlandıraq? 1723-cü ildə 1990-cı ili fəhm etmək nədir?

Salyandakı hadisə ətrafa da sirayət etmişdi. Yaxud tarix Salyandakı hadisəni sistemli bir hərəkatın başlanğıcı kimi qavramağa əsas verir. Bu hadisənin kontekstində Bakı ilə bağlı "Azərbaycan tarixi"ndə yazılmış belə bir fraza diqqətimi cəlb etdi: "Salyanla eyni vaxtda Bakıda da çıxış olmalı idi. Ancaq yuxarıda bəhs edildiyi kimi, rus hakimiyyət orqanları Bakıda hazırlanan çıxışdan xəbər tutdular və cəza tədbirləri gördülər. 4 yüzbaşı, 250 xidməti şəxs və ticarət adamı həbs edildi. Həbs edilmiş bakılılar Rusiyaya sürgün olundular."

***

Razinin qurban verdiyi gözəl "tatar qızı" ilə Qəbulə xanım arasındakı qan bağlılığını ilk dəfə xatırlatdığım kitabında Sara Aşurbəyli irəli sürüb. Lüdviq Fabritsiusun qeydlərini də Azərbaycanda ilk dəfə tarixi kontekstə o daxil edib.

Stepan Razinin öldürdüyü salyanlı qızla Salyan qazisinin nəvəsi Qəbulə xanımın qohumluq əlaqəsi hansı dərəcədə olub, bunu aydınlaşdırmaq, əlbəttə, indi çox çətindir, bəlkə də heç mümkün deyil. Ancaq görünür, Salyanın xan ailəsində Qəbulə adı təsadüfən təkrarlanmır, nəsildən-nəslə səbəbsiz olaraq ötürülmür. Qəbulələr arasındakı irtibat və bağlılıq ardıcıl olaraq davam edir. Yuxarıda da xatırlatdığım kimi, bəzi qaynaqlarda Razinin əsir götürdüyü salyanlı xanım da Salyan xanının Qəbulə adlı qızı kimi təqdim edilir.

**Qəbulənin əri, S alyan sultanı Həsən bəy, yaxud Qəbulənin nəsli**

Bakıxanovun bildirdiyi kimi, "Salyan nahiyəsinin bütün əmirləri" Qəbulənin nəslindən olan adamlar tərəfindən seçilirdi. Bu mənada, Qəbulə xanım Azərbaycan tarixindən izsiz-soraqsız ötüb keçmir.

Bəs Qəbulə kiminlə ailə qurmuşdu? Kimliyini ətraflı bilmirik. II Təhmasibin fərmanında o, "Salyan hakimi Həsən bəy" adı ilə keçsə də, tarixi qaynaqlarda o, Salyan sultanı olaraq xatırlanır: Salyan sultanı Həsən bəy.

Fatimənin və Hüseyn xanın qızı Qəbulə xanım, dediyim kimi, Abbasqulu Ağa Bakıxanovun əsərində Salyan sultanı Həsən bəyin həyat yoldaşı olaraq tanıdırılır və biz də onu belə qəbul edirik.

Amma bəzi rus qaynaqlarında, o cümlədən, general-leytenant Vasili Pottonun 1889-cu ildə yazdığı "Qafqaz müharibəsi" kitabında bildirilir ki, Zambulatovun batalyonunu qonaqpərvərliklə qarşılayan adam Salyan naibi Hüseyn bəydir. Rus zabitlərini öldürtdürən qadın isə Hüseyn bəyin anasıdır.

Həsən bəyin Hüseyn xanla əlaqəsinə gəlincə, bu barədə tarix yalnız sonrakı mərhələdə belə bir ipucu verir: Həsən bəydən sonra qaynaqlarda Salyanın hakimliyinə iddialı olan Sultanibrahim adlı bir rudbarlı görünür. Salyanı rudbarlı İbrahimdən alan yenə də Hüseyn xanın qohumu, Hüseynəli xanın oğlu Fətəli xan olub. "Hüseynəli xan hicri 1169-cu (1756) ildə oğlu Fətəli ağanı qoşunla göndərib, ata-baba mülkü olan Salyan nahiyəsini, öz qohumu rudbarlı İbrahim xanın əlindən geri aldı". Ehtimal etmək olar ki, Sultanibrahim elə Salyan sultanı Həsən bəyin qohumlarındandır və onların Quba xanları ilə, başqa sözlə, Hüseyn xanla qohumluq əlaqəsi barədə tarixdə bundan başqa heç bir cizgi yoxdur. Sadəcə, Hüseynəli xan Salyanı almaq üçün öz oğlunu öz qohumu Sultanibrahim Rudbarlının üstünə göndərir... Nəzərə alaq ki, Rudbarlı Sultanibrahim xandan sonra da onun oğlu Əli xan, yaxud 1797-ci ildən başlayaraq İbrahim xan Rudbarlının qardaşı Məhəmməd xan bir müddət Salyana hakimlik ediblər. Bu mənada, Salyanda hakimiyyətə iddialı olan şəcərənin əsası Qəbulənin ana babası Molla Məhəmməd Rudbarlının timsalında başlayıb və onların hakimiyyəti 19-cu yüzilin əvvəllərinə qədər davam edib. Həsən bəy isə tarix səhnəsindən qanlı hadisə baş verəndən dərhal sonra çəkilir. Daha doğrusu, o hadisədən sonra ruslar Bakıdan təkrar qoşun göndərib Salyanı işğal edirlər və Bakıxanovun bildirdiyinə görə, Həsən bəy də "qaçıb Dağıstan və Şirvan asilərinə qoşulur."

davamı növbəti sayımızda



*Azər TURAN*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# ŞƏNBƏ ÜÇÜN NƏZM









Səni niyə belə sevdim,
belə istədim niyə,
canımdakı min tikana,
bir gülə istədim niyə?!

Eşqdə gizlətdim bu canı
görəmməyən varmı, hanı?!
həm gizlətdim, həm də hamı
bilə istədim niyə?

Min illərçün də Allahdan
Gecə-gündüz, hər an, hər an
səni özümə həm sultan,
həm də, həm də
kölə istədim niyə?!

**Yupyumru eşq ilə**

Sevir kimsə kimsəni,
Bir kimsənin üstünə
gəl, mən də sevim səni
yupyumuru,yepyeni bir eşq ilə
yenə sənin üstünə.

Gör, sevgi üstə sevgimi
eşq eşqdən baş alan kimi,
eşq eşqi daşıran kimi,
Allah da aşıran kimi
hər ləçəyi ləçəyin,
gülü gülün üstünə,
göyü göyün, ayı ayın,
günü günün üstünə.

Gör, quş quşa şığıyantək,
gül gülə sığınantək,
son nəğmə oxunantək
ilk nəğmənin üstünə.

Gör, ikiqat sevgidən,
ikiqat eşqdən bu naşı da dəm,
gözünün yaşı da dəm,
ha içər yenə də kəm
qəmi dəmin üstünə,
dəmi qəmin üstünə.

**Səni sevmək istəyirəm**

Dünyanın ən güclü adamı
ola da bilmərəm,
olmaq da istəmirəm.
İstəmirəm bir kimsə
mənimlə qorxuda bir kimsəni.

Dünyanın ən varlı adamı
ola da bilmərəm,
olmaq da istəmirəm.
Mənə ən böyük dünya varı
qapı, pəncərəsi açıq
üzü-gözü gülən bir alaçıq!

Mən səni, mən səni
Dünyada hamıdan çox
sevə də bilmərəm,
sevmək də istəmirəm,
çünki ancaq yalandan sevənlər
hamıdan çox sevirlər.

Mən səni sakitcə, yavaşca
sevmək istəyirəm.
Sevmək istəyirəm Tanrıdan yazılantək,
Bir balaca quş
Öz balaca yuvasının
küncünə qısılantək

***

Səni sevən ölüm kimi,
Səni candan ata bilməz.
Səni sevən vətən bilməz,
Ana bilməz, ata bilməz.

Səni sevmək təhlükəli,
Səni sevib, sevib təkcə,
Yaşamaq da mümkün deyil,
Səni sevib ölmədikcə.

Bəlkə bir gün, bəlkə min il,
Sevgiyə azadlıq gərək.
Heç Allah da azad deyil,
Sən azad olduğuntək.

İnsan sevməz min illərcə,
İnsan bu gün, sabah sevər.
Sən istəyən, sən seventək,
Bəlkə, ancaq Allah sevər.

***

Qara qız ol, qara torpaq,
ol dəlin olum sənin.
Gir qoynuma, tək məni sev,
Son sevgilin olum sənin.

Gir qoynuma, dol canıma,
Tapmasın heç bir ölkə,
Heç bir ölüm, din səni.
Gecə-gündüz öpə-öpə,
Sən cücərdən güldən gözəl,
Canımdan cücərdim səni,

Bir də tökülmə gözümə,
Tökülmə üstümə bir də,
Qara qız ol, qara torpaq,
Qara qız ol,
Elə sevim ki, səni,
Heç kimi istəmə bir də.

***

Sevdim Allaha bənzədim,
Öldüm, sevgimi bəzədim,
Mən səni min il gözlədim,
Sevdim keçdim təzə minə.

Kim sevmirsə, demək gülmür,
Sevib gül olmayıb hələ,
Bəlkə Allah görmür onu,
Bəlkə doğulmayıb hələ.

Ancaq eşqdən bir dünyayçün
Ölümü də sevib ötdüm,
Ölümüm də döndü gülə,
Hər iki dünya! Mən getdim
Xoşca qalın! Gülə-gülə!

***

***Vaqif Odər***

# Şəffaf və operativ fəaliyyət...

## 13 yaşlı “ASAN xidmət”

Ölkəmizdə elektron hökumət sahəsində əldə olunan irəliləyişlər olduqca təqdirəlayiqdir. Şəffaflığın və ictimai xidmətlərin səmərəliliyinin artırılması hökumətin qarşısında duran əsas hədəflərdəndir. Bu sahədə fəaliyyətini vətəndaşların vaxtlarına qənaət etməklə rahat və nəzakətli davranış mühiti əsasında yaradılan “ASAN xidmət” mərkəzlərini xüsusi qeyd edə bilərik. Məlumdur ki, bu xidmət vətəndaşlara keyfiyyətli və şəffaflıq prinsipləri əsasında fəaliyyət göstərir. “ASAN xidmət” əhalinin inamını və rəğbətini qazanmaqla yanaşı, ölkə hüdudlarından kənarda da kifayət qədər tanınır və öyrənilir.

İyulun 13-də “ASAN xidmət”in 13 yaşı tamam olur. Xatırladaq ki, xidmət ölkə başçısının 2012-ci il 13 iyulda imzaladığı 685 saylı fərmana əsasən yaradılıb.

## İdarəetmə sistemində yeni mərhələnin başlanğıcı

Ümumiyyətlə, “ASAN xidmət” mərkəzlərinin yaradılması respublikada idarəetmə sistemində yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilməlidir. Azərbaycana məxsus olan bu yenilik, əslində, dünya miqyasında idarəetmə kontekstində mütərəqqi nümunə kimi səciyyələndirilə bilər. Bu, təsadüfi deyil, çünki “ASAN xidmət”, ilk növbədə, dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edən yeni yanaşma əsasında formalaşdırılıb. Həmin mərkəzlərdə vətəndaşlara ən müasir və rahat texnologiyalar əsasında yüksək keyfiyyətli xidmət göstərilir. Vətəndaş yalnız daxil olduğu bir mərkəzdən, inzibati binadan ayrı-ayrı dövlət qurumlarının müxtəlif xidmətlərindən eyni anda faydalana bilir.

## İnnovasiyayönümlü və çoxfunksiyalı xidmət modeli...

Belə bir mütərəqqi modelin yaradılmasında məqsəd çoxfunksiyalı xidmətin həyata keçirilməsidir. Müasir dövrdə təkmil idarəetmə sisteminə malik olan ölkələr vətəndaşlara xidmətin çoxfunksiyalı proseslər əsasında davam etdirilməsi tərəfdarı kimi çıxış edirlər. Tətbiq edilən yeni yanaşmalar idarəetmənin təkmilləşdirilməsində axtarışların davam etdiyini göstərir. Ölkəmizdə isə innovasiyayönümlü, çoxfunksiyalı xidmət modeli olan “ASAN xidmət” digər ölkələr üçün də nümunə ola bilər. Bu, vətəndaşlara geniş spektrli sadələşdirilmiş xidmət göstərmək, onların vaxt itkisinin, eləcə də, bürokratiyaya, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, elektron xidmətlərdən daha geniş istifadəni təmin etmək və dövlət orqanlarına etimadı artırmaq istiqamətində analoqu olmayan avanqard örnəkdir.

## Yeni və təkmil standartların tətbiqi

Azərbaycanın güclü dövlət mexanizminin əsasını təşkil edən faktorlardan biri məhz davamlı islahatların həyata keçirilməsi və dövlət idarəçiliyində yeni və təkmil standartların tətbiq olunmasıdır. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyət mexanizmi də bu prosesdə müstəsna rol oynayır. Bir sözlə, “ASAN xidmət”in yaradılması və nümunəvi fəaliyyəti, əslində, Azərbaycanda son dövrlərdə dövlət orqanlarının fəaliyyətinin təşkilinin təkmilləşdirilməsi istiqamətində görülən işləri sistemləşdirməyə və genişləndirməyə xidmət edən mütərəqqi yanaşma nümunəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu xidmət həm yenilik, həm rahatlıq gətirib, həm də neqativ hallarla mübarizədə ciddi dönüş yaradıb.




## 13 ildə 28 mərkəz

Hazırda Azərbaycanda 28 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir.

Onlardan 7-si paytaxt Bakı şəhərində, digər 21-i isə regional mərkəzlər olmaqla Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Masallı, Qəbələ, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən, 2 saylı Gəncə, 2 saylı Sumqayıt, Salyan, Naxçıvan, Lənkəran, Şuşadadır.

## Azərbaycanın təcrübəsinə ehtiyac duyulur...

“ASAN xidmət” Azərbaycan brendi olaraq dünyada ilk dəfə ölkəmizdə tətbiq olunub. Hazırda bu tətbiq dünyada uğurlu, sınanılmış Azərbaycan təcrübəsi kimi tanınır, ona böyük maraq göstərilir. Müxtəlif ölkələr “ASAN xidmət” sisteminin öyrənilməsi və tətbiqi üçün ölkəmizlə əməkdaşlıq edir. Təbii ki, bütün bunlar hər birimiz üçün sevindirici, bir o qədər də qürurlu haldır.

***Yeganə BAYRAMOVA***

# “Nar” AHK Azərbaycan tədbirində rəsmi telekommunikasiya tərəfdaşı kimi iştirak etdi

“Nar” Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK Azərbaycan) müxtəlif sahələri təmsil edən yerli və beynəlxalq biznes nümayəndələri, həmçinin dövlət qurumları bir araya gətirən ənənəvi yay tədbirində rəsmi telekommunikasiya tərəfdaşı qismində çıxış edib.

Tədbirdə çıxış edən “Nar”ın satış departamentinin direktoru Elnur Rzazadə AHK Azərbaycan ilə əməkdaşlıqdan məmnunluğunu vurğulayaraq bildirib: “Texnologiyanın sürətli inkişafı biznes yanaşmalarını formalaşdırır. “Nar” olaraq bu dəyişikliklərə uyğun çevik həllər təqdim edir, müştərilərimizin ehtiyaclarını əlçatan və sərfəli xidmətlərlə qarşılayırıq”. Tədbir zamanı “Nar” kiçik və orta biznes nümayəndələri üçün nəzərdə tutulmuş telekommunikasiya həllərini təqdim edərək sərfəli və dayanıqlı xidmətlərə dair məlumat verib.

Qeyd edək ki, AHK Azərbaycan 2012-ci ildən etibarən Alman iqtisadiyyatının Azərbaycandakı rəsmi nümayəndəsi olaraq fəaliyyət göstərir. 200-dən çox üzv şirkəti bir araya gətirən qurum, ölkədə biznes mühitinin inkişafı istiqamətində mühüm layihələrə imza atır. “Nar”ın AHK Azərbaycan ilə tərəfdaşlığı bu istiqamətdə qurulmuş uğurlu əməkdaşlıqlardan biridir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4220**
**Sifariş: 1436**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova